Əli Həsən əl-Əsəri

Pak Sünnədə
Orucluq
və
Qurbanlıq
bayramları əhkamları

www.islamevi.az

Bakı – 2004

Müəllif: Əli Həsən Əli Abdulhəmid əl-Hələbi əl-Əsəri
Tərcümə: R. P. Həsənov
Pedaktor: F. S. Sələfi
Dizayn və kompyuter: A. F. Qurbanov

Əli Həsən Əli Abdulhəmid əl-Hələbi əl-Əsəri
Pak Sünnədə Orucluq və Qurbanlıq bayramlarının əhkamları. 2004, səh. 60.

أحكام العيدين في السنة المطهرة
علي حسن علي عبد الحميد الحلبي الأثري

Uca Allah müsəlmanlar üçün Orucluq və Qurbanlıq kimi iki böyük bayram bəxş etmişdir. Bu bayramları qeyd edən hər bir müsəlman onların gəlişinə hazırlaşmalı və fürsətdən istifadə edib il boyu yalnız bu günlərdə əldə edilən savabları qazanmağa can atmalıdır. Eləcə də həmin gün bəzi insanların yolverdikləri şəriətə zidd əməllərdən çəkinməlidir. Elə geniş oxucu kütləsinə təqdim olunan bu kitabda da məhz bayramla əlaqəli məsələlərə qısa şəkildə toxunulacaq, onlara Quran ayələri, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* kəlamları və İslam alimlərinin bu iki mənbə ətrafındakı sözlərilə aydınlıq gətiriləcəkdir. Onun müəllifi, tanınmış alim Əli Həsən əl-Hələbinin bu əsəri, həcmcə qısa olsa belə dəlil baxımından arxalanılacaq çox dəyərli bir kitabdır.

Müəlliflik hüquqları qorunur. Bu kitabın hər hansı bir hissəsi istənilən formada və vasitələrlə tərcüməçinin razılığı olmadan nəşr edilə, hər hansı maddi daşıyıcıya yazıla, köçürülə, həkk edilə və yayıla bilməz.

İkinci nəşrin müqəddiməsi

بسم الله الرحمن الرحيم

Allaha Ona layiq həmdü-sənalar olsun! Onun elçisi və quluna, Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* ailəsinə, əshabələrinə və davamçılarına tərif və salam olsun!

Bu, «Pak sünnədə Orucluq və Qurban bayramlarının əhkamları» kitabının ikinci nəşridir. Birinci nəşrin buraxılışından bir neçə il keçməsinə baxmayaraq onu yenidən oxucu qardaşlarıma təqdim etməyi qərara aldım.

Bu nəşrə, maraqlananlara və oxuculara daima lazım ola-biləcək bir çox mühüm əlavələr etdim ki, bəlkə pak və nöqsansız Allah bununla mənim mükafat və savablarımı daha da çoxaltsın.

Allah müvəffəqiyyət sahibidir.

Birinci nəşrin müqəddiməsi

بسم الله الرحمن الرحيم

Həqiqətən də həmdü-sənalar Allaha məxsusdur. Biz Ona həmd edir, Ondan kömək və bağışlanma diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allahın doğru yola yönəltdiyi kimsəni azdıran, azdırdığını isə doğru yola yönəldən tapıla bilməz.

Mən şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur. O tək və şəriksizdir. Həmçinin şahidlik edirəm ki, Məhəmməd *(sallallahu əleyhi və səlləm)* Onun qulu və elçisidir.

Şübhəsiz ki, İslam, Allahın bəşəriyyət üçün bəyənib seçdiyi əzəmətli bir dindir. Buna səbəb onun zaman-zaman dəyişən dövrlərdə insan həyatının bütün sahələrini nizamlamasıdır. Uca Allah buyurur:

أَلا يَعْلَمُ مَنْ خَلَقَ وَ هُوَ اللَّطِيفُ الخَبِيرُ [الملك : 14]

«Məgər yaradan hər şeyi bilməzmi?! Allah (hər şeyi) incəliyinə qədər biləndir, (hər şeydən) xəbərdardır!» (əl-Mulk, 14).

İslam ümməti bu şəriəti daşıdığına və onu başqalarına çatdırdığına görə insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmət sayılır. O, bu xüsusiyyətini uca və pak Allahın Kitabından və Onun elçisi Məhəmmədin *(sallallahu əleyhi və səlləm)* Sünnəsindən uzaq düşdüyü günədək qoruyub saxlaya-caqdır. Bu səbəbdən də dünyanın hansı bölgəsində yaşama-sından asılı olmayaraq, bütün müsəlmanların bu iki mənbəyə– Quran və Peyğəmbər hədislərinə - qayıtmaları lazımdır. Onlar həm İslam dini ilə bağlı işlər, həm də ibadətlərilə əlaqəli əhkamlar

barəsində dərindən düşünməli, onların həlli yolunda elmi sübutlara əsaslanmalı və sıx birləşməlidirlər.

Mən artıq tam əmin olmuşam ki, İslamın hökmünün dərin qatlarında və onun təliminin uca zirvəsində əmələ gəlmiş çatları bərpa edəcək amillərdən biri də müsəlmanları birləş-dirəcək və onları bir-birinə bağlayacaq səbəbləri çoxaltmaqdır.

Onlardan biri də müsəlmanlara gündə beş dəfə camaat şəklində namaz qılınmasının vacib edilməsidir. Onlar Rəblərindən qorxaraq qəlblərini bir imama bağlayır, onun düzdüyü sırada dayanır və etdiyi əməlləri bir-bir təkrarlayırlar. Bu kəslər Allahın onlara tapşırdığı işləri yerinə yetirir, bir-birilə sıx əlaqə saxlayır və öz aralarında mərhəmətli olurlar. Onlar yer üzündə fitnə fəsad törətməkdən və ya kiməsə zülm etməkdən çəkinərlər. Bundan əlavə İblisin həmz, nəfx və nəfsindən[1] olan bir şeyi müsəlmanların ürəklərinə salmaması və daxillərində dünya bağ-baxçasına və onun göz qamaşdırıcı parıltısına, həqiqətdə isə onu puç arzulara yönəltməməsi üçün onlara daha bir toplantı vacib edildi. Bu, bir bayram günü olaraq təyin edilmiş cümədir.[2] Həmin gün bir yerə toplaşmış müsəlmanların sıralarından bir nəfər camaatın daxili və zahiri paklaşması və qəlbinin bir-birinə bağlanması üçün onlara Rəblərinin ayələrini xatırladır.

Onlara il ərzində cümədən əlavə daha iki gün təyin edilmişdir. Bu günlərdə müsəlmanların hamılıqla ümumislah işlərə və ictimayət arasındakı mehribanlıq əlaqələrinin möhkəmlənməsinə diqqət yetirməsi onların arasında mövcüd olan sevgi və məhəbbəti qat-qat gücləndirir.

---

[1] İbn Əsirin «ən-Nihəyə» (5/88, 90, 273) əsərində bildirildiyi kimi, həmz dəlilik, nəfx təkəbbürlük, nəfs isə məzəmmət edilən şerdir.

[2] Cümə və onun xüsusiyyətləri barədə daha geniş məlumat əldə etmək üçün «Zədu əl-miəd» (1/364-432), «Məcmuətu ər-rasəil əl-muniriyyə» (1/188-223), Şinqitinin «Advau əl-bəyən» (8/268-310), «Təfsir əl-Qurtubi» (18/96-120) və hörmətli şeyximiz əl-Əlbəninin, cümə və onun əhkamlarına dair yazdığı «əl-Əcvibətu ən-nəfiə» risaləsinə bax. Oxunması məsləhət görülən bu risalə, çap edilmişdir.

Qeyd olunan günlərdən biri, Ramazan ayının[3] ibadətlərini yerinə yetirdikdən sonra keçirilən Orücluq bayramıdır. Bu ərəfədə müsəlmanların paklaşmış və ixlasla dolmuş nəsfləri artıq şərəflənməyə və xeyirli işlərə yönəlmiş olur.

Onlar üçün təyin edilmiş ikinci gün isə Qurbanlıq bayramıdır. Həmin gün müsəlmanlar Allahın əmin-aman və toxunulmaz bir şəhərinə toplaşırlar. Elə bir mübarək torpağa ki, oradan peyğəmbərlik nurunun yayılması nəticəsində bütün dünyada bəşəriyyətin səadət günəşi doğmuşdur. Qurbanlıq günü müsəlmanlar özlərini başqa birinə deyil, yalnız izzət və cəlal sahibi Allaha yaxınlaşdıracaq işləri icra edən səmimi qəlbli qullara çevrilirlər.[4]

Bütün bunları nəzərə alaraq qərara gəldim ki, Orucluq və Qurbanlıq bayramlarına və onların əhkamlarına dair müstəqil bir kitabça yazım.[5] Çünki müsəlmanların başına gələn müxtəlif bəlalar, sıxıntılar, uğursuzluqlar və sairə müsibətlər onların pak və nöqsansız Allahın bəyan etdiyi və Onun Peyğəmbərinin

---

[3] Əziz müsəlman qardaşım, mən, şeyx Səlim əl-Hiləli ilə birgə Ramazan orucunun əhkamlarına dair «Peyğəmbərin (*sallallahu əleyhi və səlləm)* orucu» adlı bir kitab yazmışam. Əsər «əl-Məktəbə əl-İsləmiyyə» nəşriyyatı tərəfindən çap edilmişdir. Oxunulması məsləhət görülür.

[4] Süleyman Əli əl-Cubərinin «Əyədu əl-İsləm» kitabı (səh. 3-4). «əl-Mənər» nəşriyyatı tərəfindən 1350-ci ildə nəşr edilmişdir.

[5] Mən bu meydanda tək deyiləm. Bizdən öncə yaşamış alimlərin böyük əksəriyyəti Orucluq və Qurban bayramları və ya onlardan hər hansı biri haqda kifayət qədər kitab və risalələr yazmışlar. Mövzunu oxucuya asanlaşdırmaq üçün qarşılaşdığım əsərlərin adlarını onların mənbələrilə birgə sadalayıram:

Hicrətin 281-ci ilində vəfat etmiş İbn Əbi əd-Dünyanın «əl-İdeyn» əsəri. Bax: «ər-Risələtu əl-mustətrafətu» (48). Əhməd ibn Əbi Zəhirin hicrətin 300-cü illərində yazdığı «Kitəbu əl-ideyn» əsəri. Bax: «Mucamu əl-muəllifin» (2/187). Hicrətin 301-ci ilində vəfat etmiş Cəfər ibn Məhəmməd əl-Firyəbinin «Əhkəmu əl-ideyn» əsəri. Kitab bu yaxınlarda çap edilmişdir. Hicrətin 330-cu ilində vəfat etmiş əl-Huseyn ibn İsmayıl əl-Muhəmilinin «Salətu əl-İdeyn» əsəri. Bax: «Tarix ət-turas əl-arabi» (1/453). Hicrətin 533-cü ilində vəfat etmiş Zəhir ibn Tahirin «Tuhfətu idi əl-ədha» əsəri. Bax: «Kəşfu əz-zunun» (1/37) və «əl-Muntəxibu min məxtutati əl-hədis fi əz-Zahiriyyə» (317). Hicrətin 562-ci ilində vəfat etmiş Abdulkərim ibn Məhəmməd əs-Səməninin «Tuhfətu əl-ideyn» əsəri. Bax: «Tabəqatu əs-Subki» (7/184). Hicrətin 686-cı ilində vəfat etmiş Əbu əl-Yumnə ibn Əsakirin «Cuzun fihi əhədis idi əl-fitr» əsəri. Bax: «Zeylu təzkirati əl-huffəzi» (82). Hicrətin 722-ci ilində vəfat etmiş İbrahim ibn Məhəmməd ət-Tabərinin «əd-Durru ən-nadidu fimə varadə fi əl-idi» əsəri. Bax: "Bərn-əmicu ət-tucibi" (238). Hicrətin 871-ci ilində vəfat etmiş Məhəmməd ibn Fəhd əl-Məkkinin «Təqribu əl-ideyn fimə varadə fi yavmey əl-id» əsəri. Bax: «əd-Davu əl-ləmiu» (9/281). Hicrətin 1345-ci ilində vəfat etmiş Məhəmməd ibn Cəfər əl-Kətəninin «Risələtəni fi məsəil mutəəlliqa bilid» əsəri. Bax: «ər-Risələtu əl-mustətrafətu» kitabının müqəddiməsinə («bə» bölümü).

Daha sonralar bir çox başqa kitablarla da rastlaşdım.

(sallallahu əleyhi və səlləm) həyatı və sünnəsilə aydınlaşdırdığı saf mənbədən və düzgün metodikadan (ərəb. minhəc) uzaq düşmələri ucbatındandır.

Şəriət əhkamlarını və fiqhi məsələləri bilmək nə bu işin qarşısını alır, hə də ona hər hansı bir şəkildə mənfi təsir göstərir. Əksinə o, müsəlmanları elmə, əmələ, xeyrin yayıl-masına və uca Allahın yoluna dəvətə səsləyir.

Kitabın asan başa düşülməsi və tez bir zamanda oxunul-ması üçün onu sadə və müxtəsər, lakin eyni zamanda qaneedici və yetərli şəkildə yazdım. Beləki müzakirə edilən hər hansı bir məsələdə məzhəb ixtilaflarından uzaqlaşmağa və ən düzgün nəzər nöqtəsini, əsaslandığı dəlillə gücləndirərək, qeyd etməyə səy göstərdim.

Əgər dediklərimdə doğruyamsa, deməli buna məni uca Allah müvəffəq etmişdir. Yox əgər səhv edirəmsə, onda Allahdan bağışlanma və mərhəmət diləyirəm.

Son olaraq Allahdan mənim bu əməlimlə ixlaslı bir niyyətə yönəltməsini və onun vasitəsilə bütün müsəlmanlara xeyir verməsini diləyirəm. Həqiqətən də O, eşidən və duaları qəbul edəndir.

Əbu əl-Həris Əli ibn Həsən ibn Əli

- 1 -

Bayram

Ərəblər toplantı keçirilən hər hansı bir günə «əl-id» deyirlər. Bəzi dilçilər onların bir müddətdən sonra qayıdıb təkrarən eyni toplantıya yığışmalarını əsas götürərək bu kəlimənin kökünün "qayıtdı, qayıdır (ərəb. əədə, yəuudu)" kəlimələri olduğunu demişlər. Başqaları isə bu işə öyrəşildiyi üçün onun kökünün "adət" sözü olduğunu bildirmişlər. Ərəb dilində "əyyədə əl-muslimun" ifadəsi müsəlmanlar bayramlarını keçir-dilər mənasını daşıyır. İbn əl-Arabi demişdir: Bayram gününə "əl-id" deyilməsinə səbəb onun hər il yeni sevinclə gəlməsidir.[6]

Dahi alim ibn Abidin demişdir: "əl-İd"in bu cür adlan-masına səbəb həmin gün uca Allahın yaxşılıqları təkrarlı surətdə qaytarmasıdır. Yəni bütün gün boyu Allahın qullarına müxtəlif növ yaxşılıqları bəxş etməsidir. Oruclu adamın həmin gün yeyib-içməsi, bayram sədəqəsi (və ya fitrə zəkatı – tərc.) verməsi və ya Həccin ziyarət təvafı ilə sona yetməsi, kəsilən qurban ətləri və sairələr təkrarlanan yaxşılıq növlərindəndir. Çünki adət üzrə bu gün, sevinib şənlənmə, xeyir işlərdə fəallıq göstərmə və fərəhlənmə günüdür.[7]

---

[6] «Lisənu əl-ərəb» (3/319).

[7] Bax: «Haşiyətu ibn Əbidin» (2/165) əsərinə.

Müsəlman qardaşım! Allah bizi Ona itaət etməyə yönəltsin. Bilməlisən ki, Allahın qulları üçün hansı bayramları təyin etməsi dini baxımdan bəlli bir işdir. Elə sənin əlində tutduğun bu kitab da həmin mövzudan bəhs edir. Buna baxmayaraq zəmanəmizdə, qeyri-müsəlman ölkələrdə deyil məhz müsəlman ölkələrində türbələr, qəbirlər, şəxsiyyətlər, şəhərlər və sairə ilə bağlı Allahın icazə vermədiyi saysız hesabsız bayramların keçirildiyinə şahid olur-san. Məsələn məlumatlara görə Hindistanda yaşayan müsəlmanlar il ərzində 144 bayram qeyd edirlər. Bax: «İslam bayramları» səh. 8.

☙ Allahın Məhəmməd ümmətinə mərhəməti ❧

Ənəs *(Allah ondan razı olsun)* demişdir: Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Mədinəyə gələndə şəhər sakinlərinin cahiliyyədə çalıb-oynadıqları iki bayram günləri var idi.[8] O *(sallallahu əleyhi və səlləm)* bunu görərək buyurmuşdu:

عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَدِمَ النَّبِيُّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ وَ لِاَهْلِ المَدِينَةِ يَوْمَانِ يَلْعَبُونَ فِيهِمَا فِي الجَاهِلِيَّةِ، فَقَالَ: ((قَدِمْتُ عَلَيْكُمْ وَ لَكُمْ يَوْمَانِ تَلْعَبُونَ فِيهِمَا فِي الجَاهِلِيَّةِ, وَ قَد أَبْدَلَكُمُ اللَّهُ بِهِمَا خَيْرًا مِنْهُمَا : يَوْمَ النَحْرِ وَ يَوْمَ الفِطْرِ.))

«Mən sizin yanınıza gəldikdə cahiliyyədə çalıb-oynadığınız iki bayram gününüzün olduğunu gördüm. Allah onları daha xeyirli iki günlə, Qurbanlıq və Orucluqla əvəz etdi.»[9]

Əhməd Abdurrahman əl-Bənnə demişdir: Yəni Qrucluq və Qurbanlıq günləri, yaradılanlara uca Allahın şəriəti və ixtiyarı ilə seçilmişdir. Çünki onlar İslamın iki əzəmətli əsası-nın: Həccin və Orucluğun - sona çatması ilə başlayır. Məhz bu iki gündə Allah zəvvarları və orucluları bağışlar, mərhəməti isə bütün itaətkar bəndələrini bürüyər. Novruz və Məhricana gəlincə onları cahiliyyə dövründə yaşamış qəbilə başçıları təyin etmişdilər. Buna səbəb həmin vaxt gecə ilə gündüzün bərabərləşməsi, havaların mülayim keçməsi və sairə bu kimi ötəri xüsusiyyətlər olmuşdur. Bu iki məziyyə (yəni cahiliyyə və İslam bayramlarının mahiyyətləri və s. – tərc.) arasındakı fərq, düşünən hər bir kəsə aydındır.[10]

[8] Onlar Novruz və Məhrican bayramlarıdır. Bax: Azimabədinin «Əvnu əl-məbud» (3/485) əsərinə.
[9] Hədis səhihdir. Onu Əhməd (3/103, 178, 235), Əbu Davud (1134), ən-Nəsəi (3/179) və əl-Bəğəvi (1098) rəvayət etmişdir.
[10] «Fəthu ər-Rabbəni» (6/119).

Cariyələrin dəf çalmasını dinləməyə icazə verilməsi

عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: دَخَلَ عَلَيَّ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم، وَ عِنْدِي جَارِيَتَانِ تُغَنِّيَانِ بِغِنَاءِ بُعَاثٍ، فَاضْطَجَعَ عَلَى الفِرَاشِ وَ حَوَّلَ وَجْهَهُ، وَ دَخَلَ أَبُو بَكْرٍ فَانْتَهَرَنِي وَ قَالَ: مِزْمَارَةُ الشَّيْطَانِ عِنْدَ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم!؟ فَأَقْبَلَ عَلَيْهِ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم فَقَالَ: ((دَعْهُمَا)) فَلَمَّا غَفَلَ غَمَزْتُهُمَا، فَخَرَجَتَا.

Aişə *(Allah ondan razı olsun)* demişdir: Bir dəfə Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* mənim otağıma daxil oldu. Bu zaman yanımda "buəs" mahnısını oxuyan iki kölə qadın var idi.[11] O, döşəkcəyə dirsəklənərək üzünü çevirdi. Bir az sonra içəri daxil olan Əbu Bəkr onların səslərini eşitcək üstümə qışqırdı və belə dedi: Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* hüzurunda şeytan zınqırovları!? Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* üzünü ona tərəf çevirib buyurdu: *«Əl çək onlardan»*. Onun (yəni Əbu Bəkrin – tərc.) başı qarışan kimi, kölələrə çıxmalarını gözqaş etdim. Onlar da otaqdan çıxdılar.

وَ فِي رِوَايَةٍ أُخْرَى: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم: ((يَا أَبَا بَكْرٍ، إِنَّ لِكُلِّ قَوْمٍ عِيدًا، وَ هَذَا عِيدُنَا.))

Başqa rəvayətdə Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* buyurmuşdur: *«Ey Əbu Bəkr! Hər bir qövmün öz bayramı var. Bu da bizim bayramımızdır.»*[12]

İmam əl-Bəğəvi «Şərh əs-sünnə» (4/322) əsərində demişdir: «Buəs[13], ərəblərin təntənəli surətdə qeyd etdiyi günlərdən biridir. Həmin gün baş vermiş əzəmətli bir döyüşdə Avs qəbiləsi Xəzrac üzərində qələbə

---

[11] Başqa bir rəvayətdə *«onlar müğənni deyildilər»*.

(و ليستا بمُغَنِّيَتَيْن)

Bax: ən-Nəvəvinin «Şərh Muslim» (6/182) əsərinə.

[12] Rəvayətlərin hər ikisi Buxarinindir (949, 952, 987, 2907, 3530 və 3931). Hədisi həmçinin Muslim (892), Əhməd (6/134) və İbn Məcə (1898) rəvayət etmişdir.

[13] İbn əl-Əsir əl-Cəzərinin «ən-Nihəyə» (1/139) kitabına bax.

çalmışdır. Onların arasındakı yüz iyirmi il sürən bu müharibə İslam gələnədək davam edirdi. Kölələrin avazla oxuduqları şerin sözləri isə həmin döyüşə və oradakı qəhrəmanlıq səhnələrinə həsr olunmuşdur. Onun deyilməsində dini cəhətdən də fayda var idi.

Əxlaqsız işlərin deyilməsinə, haramlarla qürrələnilməsinə və pis sözlərin ücadan ifa edilməsinə gəlincə, bu növ mahnılar qadağan olunmuşdur. Onlardan hər hansı birinin Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* hüzurunda oxunması və Onun da buna susması qeyri mümkündür.

Peyğəmbər *(sallallahu əleyhi və səlləm) «Bu da bizim bayramımızdır»* kəlamı ilə edilən işin bu səbəbdən üzürlü sayılmasını bildirir. Bu iki bayram gününün başqa günlərdən fərqləndiyi üçün həmin günlərin təmtəraqlı keçirilməsi və insanların üzünün sevinclə nur-saçması dinə aid-məsələdir».

Hafiz ləqəbli İbn Həcər demişdir: «Bu hədisin daşıdığı faydalardan aşağıdakıları sadalamaq olar: Bayram günləri ailə üzvlərinə onları rahatlandıracaq və ibadət mükəlləfiyyətindən sonra bədən yorğunluqlarını çıxaracaq müxtəlif növ sərbəstliklər verməyin yolverilən olması, baxmayaraq ki, belə şeylərdən çəkinmək daha yaxşıdır. Həmçinin bayram günlərinin təmtəraqlı keçirilməsi və insanların üzünün sevinclə parıldaması dini məsələdir»[14].

- 4 -

Bayram günü gözəl qiyafədə olmaq

عَنْ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: أَخَذَ عُمَرُ جُبَّةً مِنْ إِسْتَبْرَقٍ تُبَاعُ فِي السُّوقِ، فَأَخَذَهَا، فَأَتَى رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم فَقَالَ: يَا رَسُولَ اللَّهِ، ابْتَعِ هَذِهِ، تَجَمَّلْ بِهَا لِلعِيدِ وَ الوَفُودِ، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم: ((إِنَّمَا هَذِهِ لِبَاسُ مَنْ لاَ خَلاَقَ لَهُ))، فَلَبِثَ عُمَرُ مَا شَاءَ اللَّهُ أَنْ يَلْبِثَ، ثُمَّ أَرْسَلَ إِلَيْهِ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم بِجُبَّةٍ دِيبَاجٍ،

[14] «Fəthu əl-bəri» (2/443). Mən dəfin hökmü barədə bir risalə yazmışam. Onun bir hissəsi «əl-Muctəmiu əl-Kuveytiyyə» jurnalının 1402-ci hicri il, 15-i Ramazan tarixində nəşr edilmişdir. Sonralar bu məsələni təfsilatlı bir kitabda daha da genişləndirərək oraya yeni əlavələr artırdım. Əsərin adı belədir: «əl-Cavabu əs-sədidu alə mən səələ ən hukmi əd-dufufi və əl-ənəşid». Allahdan onun tamamlanmasının və nəşr edilməsinin asanlaşdı-rılmasını diləyirəm.

فَأَقْبَلَ بِهَا عُمَرُ فَأَتَى بِهَا رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم، فَقَالَ: يَا رَسُولَ اللَّهِ، إِنَّكَ قُلْتَ: ((إِنَّمَا هَذِهِ لِبَاسُ مَنْ لاَ خَلاَقَ لَهُ))، وَ أَرْسَلْتَ إِلَيَّ بِهَذِهِ الجُبَّة، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم: ((تَبِيعُهَا أَوْ تُصِيبُ بِهَا حَاجَتَكَ)).

İbn Ömər *(Allah ondan razı olsun)* demişdir: Bir dəfə mən bazarda satılan bir ipək paltar alıb Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* hüzuruna gəldim və Ona belə dedim: Ey Allahın Peyğəmbəri, al bunu! Bayramda və nümayəndələr gələndə geyib gözəl qiyafədə olarsan. Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* ona buyurdu: *«Bu, axirətdə heç bir payı olmayanların paltarıdır»* . Ömər Allahın istədiyi bir müddətədək dayandı. Sonra Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* ona ipəkdən bir paltar göndərdi. O paltarı götürüb Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* hüzuruna gəldi və dedi: Ey Allahın Peyğəmbəri! Axı sən deyirsən ki: *«bu, axirətdə heç bir payı olmayanların paltarıdır»* - sonrada mənə bu geyimi göndərirsən. Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* ona belə buyurdu: *«İstəsən satarsan, istəsən də lazımın olacaq başqa bir işdə istifadə edərsən.»*[15]

Dahi alim əs-Sindi demişdir: Buradan aydın olur ki, bayram günü gözəl qiyafədə olmaq onların daimi adətlərindən idi. Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* bu işə etiraz etməməsi isə onun necə var eləcə də qalmasını bildirir.[16]

Hafiz ibn Həcər demişdir: "İbn əbi əd-Dunyənin və əl-Beyhəqinin səhih sənədli rəvayətlərində, İbn Ömərin iki bayram günündə ən yaxşı paltarını geyindiyi bildirilir." [17]

O həmçinin demişdir: "Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* Ömərə etiraz etməməsini əsas götürərək cümə üçün gözəl qiyafədə olmanın əslini demək olar. O *(sallallahu əleyhi*

[15] Hədisi əl-Buxari (886), (948), (2104), (2619), (3054), (5841), (5981) və (6081), Muslim (2068), Əbu Davud (1076), ən-Nəsəi (3/181), (8/196 və 198) və Əhməd (2/20, 39 və 49) rəvayət etmişdir.
[16] «Həşiyətu əs-Sindi alə ən-Nəsəi» (3/181).
[17] «Fəthu əl-bəri» (2/439).

və səlləm), yalnız bu növ geyimlə bağlı narazılığını bildirdi ki, bu da paltarın ipəkdən olmasına görə idi." [18]

İbn Qudəmə «əl-Muğni» (2/228) əsərində demişdir: "Hədis sübutdur ki, belə mərasimlər üçün gözəl qiyafədə olmaq onlar arasında bəlli bir iş idi.

Mələk demişdir: Mən hər bayram üçün ətirlənməyi və bəzənməyi elm əhlinin müstəhəb gördüyünü (yəni bəyəndiklərini – tərc.) eşitdim."

İbn Qeyyim «Zədu əl-miəd» (1/441) əsərində demişdir: "Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bu iki bayrama gedəndə ən gözəl libasını geyərdi. Onun *(sallallahu əleyhi və səlləm)* bu bayramlara və cüməyə geyindiyi bir paltarı (ərəb. hullətun – tərc.) var idi. Hərdən isə iki yaşıl, bəzən də qırmızı rəngli geyimində (ərəb. burddun – tərc.) olardı.[19] Bu, bəzi insanların güman etdiyi kimi tam bir qırmızı deyildi. Çünki əgər belə olsaydı onda burd adlanmazdı. Həqiqətdə isə onun üzərində yəmən paltarlarında olduğu kimi qırmızı xətlər var idi."

- 5 -

Musalləyə getmə haqda

عَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: ((كَانَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ يَخْرُجُ يَوْمَ الفِطْرِ وَ اللأَضْحَى إِلَى المُصَلَّى، فَأَوَّلُ شَيْءٍ يَبْدَأُ بِهِ الصَّلاَةُ ...))

Əbu Səid əl-Xudri *(Allah ondan razı olsun)* rəvayət etmişdir ki, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Orucluq və Qurbanlıq baramlarında "musallə"yə (yəni məsafə həddi qoyulmayan açıqlıq yerə – tərc.) gedərdi. Onun ən birinci başladığı iş namaz olardı...»[20]

---

[18] «Fəthu əl-bəri» (2/434)
[19] Bax: «əs-Silsilətu əs-sahihətu» (1279).
[20] Hədisi əl-Buxari (956), Muslim (889) və ən-Nəsəi (3/187) rəvayət etmişdir.

Tanınmış alim İbn əl-Həcc əl-Məliki demişdir: "Keçmiş sünnəyə əsasən bayram namazları musallədə qılınmalıdır. Çünki Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* buyurmuşdur: *«Mənim məscidimdə qılınan namaz, Məccidul-haram istisna olunmaqla başqa məscidlərdə qılınan namazlardan min dəfə əfzəldir.»*[21] Lakin bu böyük üstünlüklə yanaşı O *(sallallahu əleyhi və səlləm)*, məscidinə deyil musalləyə getmişdir." [22]

İbn Qudəmə əl-Məqdisi demişdir: [23] "Sünnəyə görə bayram namazı musallədə qılınmalıdır. Əli *(Allah ondan razı olsun)* belə edilməsini əmr etmiş, əl-Əvzəi və rəyçi alimlər isə onu yaxşı bir iş adlandırmışlar. Bu həmçinin İbn Munzirin də dediyi sözdür.[24]

Xəstəlik və ya qocalıq üzündən musalləyə gedə bilməyən şəxs isə bayram namazını məsciddə qıla bilər. Onun belə etməsinin İnşallah heç bir eyibi yoxdur." [25]

Bax burada nəzərə çatdırılacaq mühüm bir məqam vardır. Bu, musallədə namaz qılınmanın daşıdığı məqsəddir ki, onun səbəbinə görə həmin gün çoxsaylı müsəlmanlar bir yerə toplaşırlar.

Baxmayaraq ki, bizim bu gün bir sıra ölkələrdə gördüyümüz, heç ehtiyac belə duyulmayan musallələrin çoxalmasıdır. Alimlər buna diqqət yetirərək belə bir işin bəyənilməyən (ərəb. məkruh – tərc.) olduğunu söyləmişlər.[26]

İş o yerə gəlib çatmışdır ki, bəzi musallələrdə müsəlmanları parcalamaq məqsədilə hizblərə məxsus bir neçə minbər də qoyulur.

Allahdan başqa güc və qüvvət sahibi yoxdur.

---

[21] Əl-Buxari (1190) və Muslim (1394).
[22] «əl-Mədxəl» (2/283).
[23] «əl-Muğni» (2/229-230).
[24] Məsələnin dəlillərini tam təfsilatı və ona müxalif olanların şübhələrinə cavablarla əldə etmək üçün şeyx Əhməd Şakirin *(Allah ona rəhmət etsin)* «Şərh sünən ət-Tirmizi» (2/421-424) əsərində yazdığını oxu! Həmçinin hörmətli müəllimimiz əl-Əlbəninin yalnız bu məsələ ilə bağlı «Salətu əl-ideyn fi əl-musallə xaric əl-bələd hiyə əs-sunnə» adlı risaləsi vardır. Əsər Dəməşqdə çap edilmişdir. Oxu onu, həqiqətən də əsər məsələnin tam canlanmasında qayədir.
[25] «əl-Muğni» (2/230).
[26] Bax: ər-Ramlinin «Nihəyətu əl-muhtəc» (2/375) əsərinə.

Musalləyə getmə və qayıtma ədəbləri

عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: ((كَانَ النَّبِيُّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ إِذَا كَانَ يَوْمُ عِيدٍ خَالَفَ الطَّرِيقَ))

Cabir ibn Abdullah *(Allah ondan razı olsun)* demişdir: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bayram günü yolunu dəyişərdi.»[27]

İbn Qeyyim əl-Cövziyyə demişdir: Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bayram günü yolunu dəyişərdi. Yəni bir yolla gedər, başqa birisilə qayıdardı. Bir qism alimlər buna səbəbi yolda rastlaşdığı insanlara salam verməsində, digərləri hər iki yoldakı adamların Onun təbrikini qazanmasında, bir başqaları görüşdüyü insanlara ehtiyac duyduqları işlərdə kömək etməsində, bəziləri İslam şüarını yüksək tutmasında, sonuncular isə daha doğru olaraq bütün bu sadalananlarda və üstəlik Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* əməllərində özünəməxsus yer tutmuş çoxsaylı hikmətlərdə görmüşlər.[28]

İmam ən-Nəvəvi ötən rəyləri xatırlatdıqdan sonra demişdir: Səbəb bilinməsə belə, bu cür əməlin müstəhəb olması qətidir. Allah daha yaxşı bilir.[29]

Diqqət yetiriləcək iki məsələ vardır:

Birinci: İmam əl-Bəğəvi «Şərh əs-sunnə» (4/302-303) əsərində demişdir: Müstəhəbdir ki, insanlar özlərinə yer tutmaqdan ötrü səhər tezdən, sübh namazını qıldıqdan sonra musalləyə getsinlər. Həmçinin onlar bu zaman təkbir etməli-

[27] Hədisi əl-Buxari (986) rəvayət etmişdir.
[28] «Zədu əl-miəd» (1/449).
[29] «Ravdatu ət-talibin» (2/77).
İmam əl-Bəğəvinin «Şərh əs-sunnə» (4/314) əsərindəki sözlərinə bax.

dirlər. Amma imam, namaz təyin edildiyi vaxtda musal-ləyə getməlidir.

İkinci: ət-Tirmizi (530) və İbn Məcə (161) Əlinin *(Allah ondan razı olsun)* aşağıdakı sözləri dediyini rəvayət etmişlər: «Bayram namazına piyada getmək sünnədəndir.»[30]

[30] Şeyximiz (yəni əl-Əlbəni – tərc.) «Səhih sünən ət-Tirmizi»də (1/164) bu əsərin həsən olduğunu bildirmişdir.

Bayram namazlarında təkbir deyilməsi

Uca Allah buyurur:

﴿ وَ لِتُكْمِلُواْ الْعِدَّةَ وَ لِتُكَبِّرُواْ اللهَ عَلَى مَا هَدَاكُمْ وَ لَعَلَّكُمْ تَشْكُرُونَ ﴾
[البقرة : 185]

«Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona («Allahu əkbər» deməklə) təzim və bəlkə də, şükr edəsiniz.» (əl-Bəqərə, 185).

وَ ثَبَتَ أَنَّ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّم: ((كَانَ يَخْرُجُ يَوْمَ الفِطْرِ، فَيُكَبِّرُ حَتَّى يَأْتِيَ المُصَلَّى، وَ حَتَّى يَقْضِيَ الصَّلاَةَ، فَإِذَا قَضَى الصَّلاَةَ قَطَعَ التَّكْبِيرَ))

Sübuta yetirilmişdir ki: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Orucluq bayramı günü evdən çıxıb musalləyə gedənə və hətta namazı qılmağa başlayana kimi təkbir deyərdi. O yalnız namazı bitirdikdən sonra təkbiri dayandırardı.»[31]

Hədis alimi əl-Əlbəni demişdir: «Bu hədislə müsəlmanların ənənəvi olaraq yerinə yetirdikləri bir işin, yəni musalləyə gedərkən yol boyu uca səslə təkbir etmələrinin şəriətə uyğunluğu sübuta yetirilmişdir. Baxmayaraq ki, əksər müsəlmanlar bu sünnəyə laqeyid yanaşırlar. Hətta iş o yerə gəlib çatıb ki, çox nadir adamlar taparsan ki, ona riayət etsinlər...

---

[31] Bu hədisi İbn Əbi Şeybə «əl-Musannəf», əl-Məhəmili «Kitəbu saləti əl-ideyn» əsərlərində səhih bir sənədlə rəvayət etmişlər. Rəvayətin mursəl olmasına (yəni sənəddə sahabənin iştirak etməməsinə) baxmayaraq onun etibarlılığını gücləndirəcək digər sənədlər vardır. Bax: «Səhih Hədislər silsiləsi» (170) əsərinə.

Orucluq bayramı günü ilk təkbir deyilişi, namaz qılınması üçün yola düşəndən başlayır.

® «Səhih Hədislər silsiləsi» (1/329) əsəri, hədis №171.

Yeri gəlmişkən xatırladım ki, bəzilərinin etdiyi kimi, hamının bir səslə ucadan təkbir etməsi dini cəhətdən yolverilməzdir. Ümumiyyətlə uca səslə deyilməsinə icazə verilən və ya da verilməyən zikrləri irəlidə xatırlanan kollektiv formada icra edilməsi şəriətdə öz əksini tapmamışdır. Elə isə gəlin biz də bu işdən əl çəkək[32] və Məhəmməd peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* yolunun ən xeyirli yol olduğunu həmişə gözlərimiz önünə gətirək.»

Şeyxulislam İbn Teymiyyə bayram günlərində təkbirə nə zaman başlanması haqda soruşulduqda, belə cavab vermişdir: «Allaha həmdsənalar olsun! Təkbir barədə ən etibarlı söz, sələf və fiqhçilərdən ibarət sahabə və alimlər şurası(ərəb. cümhur – tərc.) tərəfindən irəli sürülmüşdür. Onlar demişlər: Ərafə günü dan yerinin sökülməsindən başlayaraq növbəti üç gün (ərəb. təşriq – tərc.) bitənə qədər hər namazdan sonra təkbir edilir. Həmçinin şəriət baxımından bayrama gedən hər bir kəsin uca səslə təkbir etməsi icazəli sayılır və bunu dörd məzhəb imamı yekdilliklə qəbul etmişdir.»[33]

Qeyd edim ki, İbn Teymiyyənin *(Allah ona rəhmət etsin)* **«hər namazdan sonra»** ifadəsilə təkbirin vaxtını müəyyənləşdirməsinə heç bir dəlil yoxdur. Elə bu səbəbdən də onu xüsusiləşdirmədən istənilən zaman demək daha düzgündür.

İmam əl-Buxarinin «Səhih» (2/461) əsərində dediyi sözlər buna əyani sübutdur. O, həmin kitabın «Orucluq və Qurbanlıq bayramları» fəslində belə demişdir:

Bölüm: Minada olan günlərdə və sübh çağı Ərəfata gedəndə təkbir demək.

"Ömər *(Allah ondan razı olsun)* Minadakı alaçığında təkbir deyərdi. Onun bu səsini məsciddə oturanlar belə eşidər və

---

[32] «Səhih hədislər silsiləsi» (1/121). Həmçinin şeyx Həmmud ət-Tuvecrinin *(Allah ona rəhmət etsin)* kollektiv surətdə təkbir etmək haqda müstəqil bir risaləsi vardır. Əsər nəşr edilmişdir.

® Nəzərinizə çatdırım ki, əl-Əlbəni araşdırmasını aşağıdakı sözlərlə bitirir: «... və həmişə birbirimizə Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)*: *«ən xeyirli yol Məhəmmədin yoludur»* kəlamını xatırladaq.» Bax: «Səhih Hədislər silsiləsi» (1/331) əsəri.

[33] «Məcmu əl-fətəva» (24/220). Həmçinin «Subulu əs-sələm» (2/71-72) əsərinə bax.

təkbir deyərdilər. Bazarda alış-veriş edən adamların da bu təkbirlərə qoşulması bütün Minanı lərzəyə gətirərdi.

İbn Ömər də həmin günlərdə Minada qılınan namazlardan sonra, yatağında, alaçığında, oturuşunda və gəzişində də təkbir deyərdi.

Həmçinin Meymunə, qurban kəsilən gün təkbir deyərdi. Qadınlar da bayramdan sonrakı üç günün gecələrində Əbən ibn Osmanın və Ömər ibn Abduləzizin imamlıq etdiyi məsciddə kişilərlə birgə təkbir deyərdilər."

İbn Ömər Orucluq və Qurbanlıq bayramlarında səhər tezdən musalləyə gəlişində, sonra isə imamın namaza başlamasına qədər təkbir edərdi.[34]

Bildiyimə görə təkbirin deyiliş forması barədə Peyğəmbərdən *(sallallahu əleyhi və səlləm)* etibarlı bir hədis rəvayət edilməmişdir. Lakin bu barədə bəzi səhabələrdən *(Allah onların hamısından razı olsun)* rəvayətlər edilmişdir. Onlar aşağıdakılardır:

İbn Məsud *(Allah ondan razı olsun)* təkbir zamanı deyərmiş:

((اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ, لا إِلَهَ إِلاَّ اللَّهُ, وَ اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ وَ لِلَّهِ الْحَمْدُ))

«Allahu əkbər, Allahu əkbər, lə iləhə illəllah və Allahu əkbər, Allahu əkbər və lilləhil-həmd»

«Allah ən böyükdür, Allah ən böyükdür. Allahdan başqa ilah yoxdur. Allah ən böyükdür. Allah ən böyükdür. Allaha həmdsənalar olsun!»[35]

İbn Abbas isə onu belə deyərmiş:

((اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ, اللَّهُ أَكْبَرُ وَ لِلَّهِ الْحَمْدُ, اللَّهُ أَكْبَرُ وَ أَجَلُّ, اللَّهُ أَكْبَرُ عَلَى مَا هَدَانَا))

[34] əd-Dəraqutni, İbn Əbi Şeybə və başqaları səhih sənədlə rəvayət etmişlər. Bax: «İrva əl-ğalil» (650) əsərinə.
[35] İbn Əbi Şeybə (2/168) səhih bir isnadla rəvayət etmişdir.

«Allahu əkbər, Allahu əkbər, Allahu əkbər və lilləhil-həmd, Allahu əkbər və əcəllə, Allahu əkbər alə mə hədəənə»

«Allah ən böyükdür, Allah ən böyükdür. Allah ən böyükdür. Allaha həmdsənalar olsun! Allah ən böyükdür və əzəmətlidir. Allah bizi hidayətləndirdiyi üçün ən böyükdür.»[36]

Həmçinin Abdurrazzəq[37] və onun vasitəsilə əl-Beyhəqi «Sunən əl-kubra» (3/316) əsərində səhih sənədlə Səlman əl-xeyrinin *(Allah ondan razı olsun)* aşağıdakı sözləri dediyini rəvayət etmişlər:

((اللَّهُ أَكْبَر, اللَّهُ أَكْبَر, اللَّهُ أَكْبَر كَبِيرًا))

«Allahu əkbər, Allahu əkbər, Allahu əkbər kəbiran.»

«Təkbir deyin: Allah ən böyükdür. Allah ən böyükdür. Allah ən böyükdür, əzəmətlidir.»

Bir çox insanlar, sələf tərəfindən deyilmiş bu rəvayətlərə cürbəcür zikrlər, əlavələr və ya əsassız uydurmalar artırmaqla onlara tam şəkildə müxalif olmuşlar. Hafiz ibn Həcər «Fəthu əl-bəri» (2/536) əsərində bu haqda demişdir: "Hal-hazırkı zaman, bu barədə heç bir əsası olmayan bir əlavə[38] də peyda olub."

[36] Onu əl-Beyhəqi (3/315) səhih sənədlə rəvayət etmişdir.
[37] Bu rəvayəti onun «əl-Musannəf» əsərində görmədim.
[38] Əksinə, əlavələr və əlavələr!!

☙ Bayram günlərində yemək nə vaxt yeyilir ❧

عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: ((كَانَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ لاَ يَغْدُو يَوْمَ الفِطْرِ حَتَّى يَأْكُلَ تَمْرَاتٍ)).

Ənəsdən *(Allah ondan razı olsun)* rəvayət olunan hədisdə, o belə demişdir: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Orucluq bayramı günü bir neçə xurma yeməmiş (musalləyə - tərc.) getməzdi.»[39]

İbn əl-Muhəlləb demişdir: Namazdan qabaq bir şey yeməyin hikməti, bayram namazını qılan şəxsin oruc tutmalı olduğunu zənn etməməsindədir. Sanki Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bu əməlilə ona aparan səbəbi aradan qaldırmaq istəmşdir.[40]

عَنْ بُرَيْدَةٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: ((كَانَ النَّبِيُّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ لاَ يَخْرُجُ يَوْمَ الفِطْرِ حَتَّى يَطْعَمَ، وَ يَوْمَ النَّحْرِ: لاَ يَأْكُلُ حَتَّى يَرْجِعَ فَيَأْكُلُ مِنْ نَسِيكِهِ)).

Bureyddən *(Allah ondan razı olsun)* edilən rəvayətdə o demişdir: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Orucluq bayramı günü bir şey yeməyincə (musalləyə – tərc.) getməzdi. Lakin Qurbanlıq bayramı günü, geri dönməyincə heç nə yeməzdi. Geri döndükdə isə, öz qurbanlığından yeyərdi.»[41]

Dahi alim İbn Qeyyim demişdir: ...Amma Qurban bayramında, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* musallədən

---

[39] Hədisi əl-Buxari (953), ət-Tirmizi (543), İbn Məcə (1753) və Əhməd (3/126, 164, 232) rəvayət etmişdir.

[40] «Fəthu əl-bəri» (2/447). Əsər sahibinin, xurmanın müstəhəbliyindəki hikmətə dair dediyi dəyərli sözlərə bax.

[41] Hədisi ət-Tirmizi (542), İbn Məcə (1756), əd-Dərimi (1/375) və Əhməd (5/352) rəvayət etmişdir. Onun isnadı həsəndir.

® Yəni dərəcəsi səhih hədisdən aşağı zəifdən isə yüksəkdir. Həsən hədis, əməl edilmə baxımından yararlıdır.

qayıtmayınca heç nə yeməzdi. Qayıtdıqda isə öz qurbanlığından yeyərdi.[42]

Tanınmış alim əş-Şovkani demişdir:[43] Qurbanlıq bayramında yemək yeməyin gecikdirilməsinin hikməti, insanın ilk öncə kəsilən qurbanlıq ətindən dadmasıdır. Çünki həmin gün qurbanlıqların kəsilməsi və onların ətlərinin yeyilməsi dini bir mərasimdir. Bu sözlər İbn Qudaməyə məxsusdur.[44]

Əz-Zeyn ibn əl-Muneyyir demişdir:[45] Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* hər iki bayramda dini baxımından yolverilən vaxtlarda yemək yemişdir. Onun belə etməsinə səbəb, yalnız bu bayramlara aid olan sədəqələrin verilməsi idi. Başqa sözlə desək, Orucluq bayramının sədəqəsini musalləyə getməzdən öncə, Qurbanlıq bayramının sədəqəsini isə, qurbanı kəsdikdən sonra verməsinə görə idi.

- 9 -

Bayramdan əvvəl qüsl alınması

Nəəfi Abdullah ibn Ömərin Orucluq bayramı günü musalləyə getməzdən əvvəl qüsl almasını rəvayət etmişdir.[46]

İmam Səid ibn əl-Museyyib demişdir: "Orucluq bayramının qaydası(sünnəsi) üçdür: Musalləyə piyada getmək, yola çıxmazdan öncə bir şey yemək və qüsl almaq."[47]

Qeyd edim ki, ola bilsin Səid ibn Museyyib **sünnə** sözü ilə sahabələrin sünnəsini yəni onların yolunu nəzərdə tutubdur. Yox

---

[42] «Zədu əl-miəd» (1/441).
[43] «Neylu əl-Əvtar» (3/357).
[44] Bax: «əl-Muğni» (2/371).
[45] Bax: «Fəthu əl-bari» (2/448).
[46] Əsəri Məlik (1/177), əş-Şəfii (73) və Abdurrazzəq (5754) rəvayət etmişdir. Onun sənədi səhihdir.
[47] «İrva əl-ğalil» (2/104) əsərində olduğu kimi, bu rəvayəti əl-Firyəbi (127/1, 2) səhih isnadla danışmışdır.

əgər bu belə deyilsə, onda bildirirəm ki, Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* bu barədə səhih sünnəsi yoxdur.

İmam ibn Qudamə demişdir: Bayram günü qusl almaqla təmişlənmək müstəhəbdir. İbn Ömər Orucluq bayramı günü qüsl alardı. Bu, Əlidən də *(Allah ondan razı olsun)* rəvayət edilmişdir. Həmçinin Əlqamə, Urvə, Əta, ən-Nəxai, əş-Şəbi, Qatədə, Əbu əz-Zinnəd, Məlik, əş-Şəfii, İbn Munzir...[48] qüsl alınmasını demişdir.

Amma bu barədə Peyğəmbərdən *(sallallahu əleyhi və səlləm)* rəvayət edilən hədisə gəlincə, o zəifdir.[49]

- 10 -

Bayram namazından əvvəl və ya sonra namaz qılınırmı

عَنْ ابْنِ عَبَّاسٍ: ((أَنَّ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ صَلَّى يَوْمَ الفِطْرِ رَكْعَتَيْنِ، لَمْ يُصَلِّ قَبْلَهَا وَ لاَ بَعْدَهَا ...)).

İbn Abbas *(Allah ondan razı olsun)* rəvayətində demişdir: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bayram günü iki rükət namaz qıldı. Lakin nə ondan əvvəl və sonra namaz qılmadı...»[50]

İbn Qeyyim *(Allah ona rəhmət etsin)* demişdir:[51] "Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* və Onun əshabələri musalləyə gələrkən bayram namazından əvvəl və ya sonra namaz qılmazdılar."

---

[48] «əl-Muğni» (2/370).

[49] Həmin hədis «Sünən ibn Məcə» (1315) əsərində rəvayət edilmişdir. Onun isnadında iştirak edən Cubəratu ibn əl-Muğallis və onun şeyxi zəifdirlər.

O həmçinin (1316) nömrəli hədisdə rəvayət edilmişdir. Lakin bu sənəddə də bir çoxlarının yalancı adlandırdıqları Yusuf ibn Xalid əs-Səmti adlı rəvayətçi iştirak edir.

[50] Əl-Buxari (989), ət-Tirmizi (537), ən-Nəsəi (3/193) və İbn Məcə (1291).

[51] «Zədu əl-miəd» (2/443).

Hafiz ibn Həcər demişdir:[52] "Son olaraq, bayram namazının nə özündən əvvəl, nə də sonra hər hansı bir sünnəsinin təsdiq olunmadığı qənaətinə gəlinir. Bu nəticə, onu cümə namazı ilə müqayisə edənlərin dediyinə ziddir."[53]

- 11 -

Bayram namazlarının hökmü

Şeyxulislam ibn Teymiyyə demişdir: "... Elə bu səbəbdən də bayram namazının hər bir fərdə vacib olmasını daha düzgün hesab etdik. Necə ki, bu, Əbu Hənifənin və başqalarının dediklərinə uyğundur. Onu əş-Şəfii belə bəzi ifadələrində bildirmişdir. Həmçinin o, Hənbəli məzhəbinin əsaslandığı iki nəzər nöqtəsindən biridir.

Bayram namazını vacib saymayanların dedikləri sözlərə gəlincə, onların bu ifadələri məqsəddən çox-çox uzaq düşmüşdür. Həqiqətə qalsa o, İslamın ən əzəmətli rəmzlərindən biridir. Çünki insanlar bu mərasimə cümə namazından daha çox sayda toplaşırlar. Həmçinin həmin günə təkbir deyilişi təyin edilmişdir. Amma, «Bayram namazını bir dəstə insanın qılması ilə digərlərinin üzərindən bu məsuliyyət götürülər» (ərəb. fardun ələ əl-kifəyəti – tərc.) – deyən kimsələrə gəlincə, onların bu sözləri heç bir qaydaya əsaslanmır..."[54]

Dahi alim əş-Şovkəni «əs-Seylu əl-cərrar» (1/315) əsərində demişdir:[55]

"Nəzərinə çatdırım ki, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Orucluq və Qurbanlıq bayramı günlərindəki bu namazı həmişə qılar və onu heç vaxt buraxmazdı. O *(sallallahu əleyhi və səlləm)*, bütün insanlara, hətta həddi-büluğa çatmasına az

---

[52] «Fəthu əl-bəri» (2/476).
[53] Bax: «Şərh əs-sünnə» (4/316, 317).
[54] «Məcmu əl-fətəvi» «23/161).
[55] Onun bu sözlərini Siddiq Həsənxan «əl-Məvizatu əl-həsənətu» (42-43) kitabında da nəql etmişdir.

qalmış qızlara, eləcədə artıq yetkinləşərək ərə getməsini gözləyənlərə (onların xüsusi qeyd olunmasına səbəb, abır-həya əlaməti olaraq evlərinin bir küncündə qərar tutmalarıdır. Bax: «Səhih Muslim Nəvəvinin şərhilə» (2/484) - tərc.) və heyzli olan qadınlara belə bayram namazına getmələrini əmr edərdi. Bircə heyzli qadınlara namaz qılmamalarını, sadəcə müsəlman-ların bu xeyrinə və cağırışına şərik olmalarını tapşırardı. Nəinki bu, hətta Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* çadrası (ərəb. cilbəb – tərc.) olmayan qadınlara onu rəfiqəsindən alıb geyinməyi əmr etmişdir."[56]

Bütün bunların hamısı, bayram namazının qılınmasının bir dəstə insana deyil, hər bir fərdə özüdə mütləq şəkildə vacib olmasını deməyimizə əsas verir. Musalləyə gedilməsinə verilən ümumi qaydada-olan əmr, öz tərkibində üzr sahibləri istisna olunmaqla hər bir kəsin namaz qılması əmrini də daşıyır. Çünki musalləyə getmək namazın qılınmasına vəsilədir. Əgər vəsilə vacibdirsə, deməli onun hədəfi də vacibdir. Bu məsələdə (yəni namazın qılınmasının vacibliyində – tərc.) kişilərin cavabdehliyi qadınlardan daha da çoxdur.

Sonra əş-Şovkani *(Allah ona rəhmət etsin)* sözünə davam edərək belə demişdir: "Bayram namazının vacibliyini sübuta yetirəcək dəlillərdən biri də, onun cümə namazı ilə bir günə düşdüyü zaman cüməni təxirə salmasıdır.[57] Vacib olmayan bir şey isə, vacib olanı təxirə sala bilməzdi. Həmçinin sübuta yetmişdir ki, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* onu, bir ibadət olaraq təyin edildiyi gündən, dünyasını dəyişənədək camaatla qılmışdır. Onun *(sallallahu əleyhi və səlləm)* davamlı

---

[56] Bütün bu deyilənlər Ummu Atıyyənin hədisində öz təsdiqini tapmışdır. Onu əl-Buxari (324), (351), (971), (974), (980), (981), (1652), Muslim (890), ət-Tirmizi (539), ən-Nəsəi (3/180), ibn Məcə (1307) və Əhməd (5/84, 85) rəvayət etmişdir.

[57] Əbu Hureyrənin hədisində bildirildiyi kimi: Bayramla cümə bir günə düşdüyündə Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* belə buyurmuşdur: *«Bu (mübarək – tərc.) gününüzdə iki bayram üst-üstə düşüb. Əgər kim istəsə cümənin mükafatını (müstəqil – tərc.) qazana bilər, lakin biz onları birləş-dirəcəyik (yəni bu iki bayramı bir yerdə qeyd edərək, cümə namazını qılmayacaq, yalnız bayram namazı ilə kifayətlənəcəyik – tərc.).»* Hədisi Əbu Davud (1073) və İbn Məcə (1311) həsən isnadla rəvayət etmişdir. Bax: «əl-Muğni» (2/358) və «Məcmu əl-fətəvi» (24/212).

surətdə yerinə yeretdiyi bu əmələ, insanların namaz qılmağa getmələrini əmr etməsi də əlavə edilir."[58]

Hörmətli müəllimimiz əl-Əlbəni «Təməmu əl-minnəti» (səh. 344) əsərində Ummu Atıyyənin hədisini rəvayət etdikdən sonra demişdir: "Hədisdə qeyd olunan əmr forması bu işin vacibliyini göstərir. Heç kimə gizli deyil ki, əgər musalləyə getmək vacibdirsə, deməli namazın qılınması ilk növbədə vacibdir. Düzgün olan da onun əkcə müstəhəb deyil, vacib olmasıdır. Bu kifayət edər..."

- 12 -

Bayram namazının vaxtı

عَنْ عَبْدِ اللَّهِ بْنِ بُسْرٍ صَاحِبِ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ أَنَّهُ خَرَجَ مَعَ النَّاسِ يَوْمَ فِطْرٍ أَوْ أَضْحَى، فَأَنْكَرَ إِبْطَاءَ الإِمَامِ، وَ قَالَ: إِنَّا كُنَّا قَدْ فَرِغْنَا سَاعَتَنَا هَذِهِ، وَ ذَلِكَ حِينَ التَّسبِيح)).

Orucluq və ya Qurbanlıq bayramı günü camaatla birgə musalləyə gələn Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* əshabəsi Abdullah ibn Busr, imamın gecikdiyini görüb buna öz etirazını bildirdi. O belə dedi: «Biz bu radələrdə artıq namazı bitirirdik.» Hadisə, təsbih zamanı baş vermişdi. [59]

Bu məsələdə ən etibarlı rəvayət budur.[60] Ondan qeyri rəvayətlər isə isnad baxımından yararsızdırlar.

İbn Qeyyim demişdir: "Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Orucluq bayramının namazını gecikdirər, Qurbanlıq

[58] Məsələnin dəlili irəlidə ötmüşdür. Bax: «Neylu əl-Əvtar» (3/382-383) və «ər-Rovdatu ən-nədiyyə» (1/142).

[59] Yəni nafilə namazın qılındığı vaxt olmuşdur. Bu isə, namaz qılınması bəyənilməyən (ərəb. məkruh – tərc.) müddətin bitməsindən sonradır. Bax: «Fəthu əl-bəri» (2/457) və «ən-Nihəyə» (2/331).

[60] Əl-Buxarinin natamam sənədlə (ərəb. muəlləq – tərc.) rəvayət etdiyi bu hədisi, Əbu Davud (1135), İbn Məcə (1317), əlHakim (1/295) və əl-Beyhəqi (3/282) tam şəkildə danışmışlar. Onun sənədi səhihdir.

bayramı namazını isə tələsdirərdi. İbn Ömər Sünnəyə sıx bağlanması ilə yanaşı, günəş çıxmayınca musalləyə getməzdi."[61]

Siddiq Həsənxan demişdir: "Bu iki bayram namazının vaxtı günəşin bir nizə ölçüsündə yüksəlməsindən zeniti keçməsinə qədərdir. Bu barədə rəvayət edilən hədislərin etibarsızlığına baxmayaraq, alimlər bunu yekdilliklə qəbul etmişlər. Bayram namazlarının son vaxtı isə günəşin zeniti keçməsinə qədərdir."[62]

Şeyx Əbu Bəkr əl-Cəzəiri demişdir: "Bayram namazlarının vaxtı günəşin bir nizə ölçüsündə yüksəlməsindən zeniti keçməsinə qədərdir. Lakin yaxşı olardı ki, insanların qurbanlarını rahat kəsməsi üçün Qurbanlıq bayramının namazı ilkin saatlarda, sədəqələrini çıxartmaları üçün isə Orucluq bayramının namazı bir qədər gecikdirilərək qılınsın."[63]

Nəzərinizə çatdırım ki, əgər bayram günü gec bilinərsə, onu ertəsi ğün səhər tezdən qılarlar.

عَنْ أَبِي عُمَيرِ بْنِ أَنَسٍ، عَنْ عُمُومَةٍ لَهُ مِنْ أَصْحَابِ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ يَشْهَدُونَ أَنَّهُمْ رَأَوُا الهِلاَلَ بِالأَمْسِ، فَأَمَرَهُمْ أَنْ يُفْطِرُوا، وَ إِذَا أَصْبَحُوا أَنْ يَغْدُوا إِلَى مُصَلاَّهُمْ)).

Əbu Davud (1157), ən-Nəsəi (3/180) və İbn Məcənin (1653) səhih bir isnadla rəvayət etdikləri hədisdə Əbu Umeyr ibn Ənəs Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* əshabələrindən olan əmilərinin aşağıdakı sözləri dediklərini nəql etmişdir: «Əgər səhabələrdən biri dünən gecə ayı gördüyünü xəbər verirdisə, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* onlara oruclarını pozmağı və ertəsi gün səhər tezdən musalləyə getmələrini əmr edərdi.»

- 13 -

[61] «Zədu əl-miəd» (1/442).
[62] «əl-Mövizətu əl-həsənətu» (43, 44).
[63] «Minhəc əl-muslim» (278).

Bayram namazlarında iqamə və azan verilməz

عَنْ جَابِرِ بْنِ سَمُرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: ((صَلَّيْتُ مَعَ رَسُولِ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ العِدَيْنِ غَيْرَ مَرَّةٍ، وَ لاَ مَرَّتَيْنِ، بِغَيْرِ أَذَانٍ وَ لاَ إِقَامَةٍ)).

Cabir ibn Səmura *(Allah ondan razı olsun)* demişdir: «Mən Peyğəmbərlə *(sallallahu əleyhi və səlləm)* birgə bir neçə dəfə bayram namazlarını qıldım. Onlar azan və iqaməsiz qılınırdı.»[64]

İbn Abbas və Cabirin *(Allah onların ikisindən razı olsun)* aşağıdakı sözləri dedikləri rəvayət edilir: «Orucluq və Qurbanlıq günlərində (qılınan bayram namazlarında – tərc.) azan və iqamə verilməzdi.»[65]

İbn Qeyyim demişdir: "Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* musalləyə çatan kimi azan və iqamə verilmədən namaza başlayardı. Burada «artıq namaza toplaşılmışdır» deməyə heç ehtiyac da yoxdur. Çünki sünnəyə görə bu kimi işlər yolverilməzdir."[66]

İmam əs-Sanəni bu fəsildə rəvayət edilən əsərləri açıqlayaraq demişdir: "Bu deyilən sözlər, azan və iqamənin bayram namazına şəriət tərəfindən təyin edilməməsinə sübutdur. Onların deyilişi isə dinə əlavədir (ərəb. bidət – tərc.)."[67]

- 14 -

Bayram namazının qılınması

[64] Muslim (887), Əbu Davud (1148) və ət-Tirmizi (532).
[65] Əl-Buxari (960) və Muslim (886).
[66] «Zədu əl-miəd» (1/442).
[67] «Subulu əs-sələm» (2/67).

Birinci: Ömərin *(Allah ondan razı olsun)* rəvayətinə görə bayram namazı iki rükətdən ibarətdir. O belə demişdir:

((صَلاَةُ السَّفَرِ رَكْعَتَانِ، وَ صَلاَةُ الأَضْحَى رَكْعَتَانِ، وَ صَلاَةِ الفِطْرِ رَكْعَتَانِ، تَمَامٌ غَيْرُ قَصْرٍ، عَلَى لِسَانِ مُحَمَّدٍ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ)).

«Səfər namazı iki rükətdir. Qurbanlıq və Orucluq bayramlarının namazları da iki rükətdir. Onlar yarımçıq deyillər, əksinə Məhəmmədin *(sallallahu əleyhi və səlləm)* kəlamları ilə tamdırlar.»[68]

İkinci: Birinci rükət başqa namazlarda olduğu kimi «Allahu əkbər» sözü ilə (ərəb. təkbiratu əl-ihramla – tərc.) başlayır. Bundan sonra yeddi dəfə təkbir deyilir. İkinci rükətdə isə keçid təkbirindən əlavə beş dəfə Allahu əkbər deyilir.

عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا ((أَنَّ رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ كَانَ يُكَبِّرُ فِي الفِطْرِ وَ الأَضْحَى: فِي الأُولَى سَبْعَ تَكْبِرَاتٍ، وَ فِي الثَّانِيَةِ خَمْسًا، سِوَى تَكْبِيرَتَيْ الرُّكُوعِ)).

Aişə *(Allah ondan razı olsun)* rəvayət etmişdir ki: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Orucluq və Qurbanlıq bayramlarının namazlarında ruku təkbirlərindən əlavə birinci rükətdə yeddi, ikincidə isə beş dəfə təkbir edərdi.»[69]

İmam əl-Bəğəvi demişdir: "Bu, sahabələr və onlardan sonra yaşamış bir çox elm əhlinin əsaslandığı nəzər nöqtəsidir. Onlar bildirmişlər ki, bayram namazının birinci rükətində açılış

---

[68] Bu rəvayəti Əhməd (1/37), ən-Nəsəi (3/183), ət-Tahavi «Şərh məaniyə əl-əsər» (1/421) və əl-Beyhəqi (3/200) səhih bir isnadla nəql etmişlər.

[69] Əbu Davud (1150), İbn Məcə (1280), Əhməd (6/70) və əl-Beyhəqi (3/287) səhih isnadla rəvayət etmişdir.

Nəzərinizə çatdırım ki, sünnəyə əsasən təkbirin deyilişi qiraətdən əvvəl olmalıdır. Necə ki bu barədə, Əbu Davudun (1152), İbn Məcənin (1278) və Əhmədin (2/180) Amr ibn Şueybdədən, onun da atası vasitəsilə babasından danışdığı hədisdə bildirilir. O demişdir: «Peyğəmbər *(sallallahu əleyhi və əslləm)* bayram namazının birinci rükətində yeddi dəfə təkbir dedikdən sonra qiraətə başladı. Bundan sonra təkbir deyərək ruku etdi. Onu bitirdikdə səcdə etdi. Daha sonra ayağa qalxaraq beş dəfə təkbir etdi və qiraətə başladı. Sonra təkbir deyərək ruku etdi. Ondan bitirdikdə isə səcdə etdi.» Bu hədis onu gücləndirəcək sənədlərlə həsən sayılır. Bax: «İrva əl-ğalil» (3/108-112).

Dahi alim İbn Qeyyim «Zədu əl-miəd» (1/443,444) əsərində bildirdiyi kimi, buna zidd rəvayətlər etibarsızdır.

təkbirindən (ərəb. təkbiratu əl-istiftəh –tərc.) başqa yeddi, ikinci rükətində isə ayağa qalxarkən deyilən təkbirdən əlavə beş dəfə Allahu əkbər deyilir. Bunlar (yəni yeddi və beş saylı təkbirlər – tərc.) qiraətdən əvvəl deyilir. Bu deyilənlər, Əbu Bəkr, Ömər, Əli və sairələrindən rəvayət edilmişdir."[70]

Üçüncü: Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* bayram təkbirlərində əllərini qaldırması barədə etibar olunacaq rəvayət yoxdur.[71] Lakin ibn Qeyyim demişdir: "İbn Ömər sünnəyə tabeçiliyinə baxmayaraq hər təkbirdə əllərini qaldırardı."[72]

Qeyd edim ki, ən xeyirli yol Məhəmməd peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* yoludur.

Hörmətli şeyximiz əl-Əlbəni «Təməmu əl-minnəti» (səh. 348) əsərində demişdir: "Ömər və onun oğlundan rəvayət edilənlər bu əməlin sünnə olduğunu bildirmir. Ələlxüsus da onlardan nəql edilən bu əsərlər isnad baxımından səhih deyillər.

Ömərin rəvayətini əl-Beyhəqi zəif bir sənədlə danış-mışdır.

Oğlundan (yəni Abdullah ibn Ömərdən – tərc.) rəvayət edilən əsərə gəlincə, o hələ də qarşıma çıxmayıb."

Ustadımız əl-Əlbəni «Əhkəmu əl-cənəiz» (səh. 148) əsərində, buna bənzər hökmlü bir məsələdə demişdir:

"İbn Ömərin bu işi öz yozumu ilə deyil, Peyğəmbərdən *(sallallahu əleyhi və səlləm)* nəyəsə əsaslanaraq etdiyini güman edən şəxs, gərək onun Peyğəmbərdən (ərəb. mərfu – tərc.) olduğunu sübuta yetirsin."

Dördüncü: Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* bayram namazının təkbirləri arasında müəyyən bir zikr söyləməsi barədə etibarlı rəvayət yoxdur. Lakin ibn Məsudun *(Allah ondan razı olsun)* bayram namazı haqda aşağıdakı sözləri dediyi sübuta yetmişdir:[73]

---

[70] Əl-Bəğəvi «Şərh əs-sünnə» (4/309) əsərində digərlərinin adlarını da sadalamışdır. Bax: Şeyxulislamın «Məcmu fətəva» (24/220, 221) əsərinə.

[71] «İrva əl-ğalil» (3/112-114) əsərinə baxman məsləhətdir.

[72] «Zədu əl-miəd» (1/441).

[73] Onu əl-Beyhəqi (3/291) etibarlı (ərəb. ceyyid – tərc.) sənədlə rəvayət etmişdir.

"Hər iki təkbirin arasında izzət və cəlal sahibi Allaha həmd və sənalar vardır."

İbn Qeyyim *(Allah ona rəhmət etsin)* demişdir: "Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* hər iki təkbirin arasında az bir müddət susardı. Onun *(sallallahu əleyhi və səlləm)* təkbirlər arasında müəyyən bir zikri deməsi haqda etibar olunacaq rəvayət yoxdur."[74]

Nəzərinizə çatdırım ki, təkbirlərdə əllərin qaldırılması bəhsində dediyim sözlər burada da öz qüvvəsindədir.

Beşinci: Təkbirləri deyib qurtardıqdan sonra «əl-Fatihə» surəsi, onu da bitirdikdə, rükətlərdən birində «Qaf», digərində isə «əl-Qəmər» surəsi oxunulur.[75]

Bəzən də Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bu iki rükətdə «əl-Əla» və «əl-Qaşiyə» surələrini oxuyardı.[76]

İbn Qeyyim *(Allah ona rəhmət etsin) demişdir:* "Bu deyilənlərin hər ikisi Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* əməlində öz etibarlı təsdiqini tapmışdır. Onlardan başqa rəvayətlərin səhihliyi isə sübuta yetirilməmişdir."[77]

Altıncı: Bayram namazının yerdə qalan icra tərzi isə adi namazlarda olduğu kimidir. Onlar arasında heç bir fərq yoxdur.[78]

Yeddinci: Camaatla qılınan bayram namazına gecikərək onu ötürmüş şəxs iki rükət namaz qılır.

İmam əl-Buxari *(Allah ona rəhmət etsin)* demişdir: "Bayram namazını ötürmüş şəxsin iki rükət namaz qılması bölümü."[79]

---

[74] ® «Zədu əl-miəd» (1/443)

[75] Hədisi Muslim (891), ən-Nəsəi (8413), ət-Tirmizi (534) və İbn Məcə (1282) Əbu Vaqid əl-Leysidən *(Allah ondan razı olsun)* rəvayət etmişdir.

[76] Bu rəvayəti Muslim (878), ət-Tirmizi (533), ən-Nəsəi (3/184) və İbn Məcə (1281) ən-Numən ibn Bəşirdən *(Allah ondan razı olsun)* nəql etmişdir.

[77] «Zədu əl-miəd» (1/443). Bax: «Məcəllətu əl-əzhər» (8/193).

Bəzi alimlər bu surələrin oxunuşundakı hikmətlər barədə söz açmışlar. Onların dediklərilə tanış olmaq üçün «Şərh Muslim» (6/182) və «Neylu əl-əvtar» (3/297) əsərlərinə bax.

[78] Bu məsələni dəlillərlə öyrənmək üçün ustadımız əl-Əlbəninin «Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* namazı» adlı, çox qiymətli bir əsərində yazdıqlarını oxu. Kitab dəfələrlə çap edilibdir.

Həmçinin mənim müxtəsər olaraq yazdığım «ət-Təzkiratu fi sifəti vudu və saləti ən-nəbi» adlı risaləyə baxa bilərsən.

Hafiz ibn Həcər «əl-Fəth» (2/550) əsərində bu bölümə açıqlama yazaraq demişdir: "Bu başlıq özündə iki hikmət daşıyır:

1. Camaatla qılınan bayram namazını zəruriyətdən və ya könüllü şəkildə ötürmüş şəxsin onu bərqərar etməsinə şəriətin icazə verməsi.

2. Qılınan qəzanın iki rükət olması. Əta demişdir: "Əgər kimsə bayram namazını ötürübsə, iki rükət namaz qılsın."[80]

Dahi alim Vəliyyullah əd-Dəhləvi demişdir: "Bu, Şəfiinin məzhəbinə əsasən deyilmiş nəzər nöqtəsidir. Onlar demişlər: İmamla qılınan namazı ötürmüş şəxs, camaat namazının savabını itirməsinə baxmayaraq, bayramın fəzilətini əldə etmək üçün iki rükət namaz qılmalıdır.

Lakin Hənəfi məzhəbinə əsasən bayram namazının qəzası qılınmaz.[81] Əgər imamla qılınan namazı ötürübsə, o bu namazı birdəfəlik itiribdir."[82]

İmam Məlik «Muvatta» əsərində demişdir:[83] "Bayram namazını təklikdə qılan hər bir kişi və qadın, mənim fikrimcə birinci rükətdə qiraətdən əvvəl yeddi, ikincidə isə yenə də qiraətdən öncə beş dəfə təkbir etməlidir."

Bayram namazını ötürən şəxs, onu başqa namazlarda olduğu kimi, necə var eləcə də qılır.[84]

Səkkizinci: Təkbirlər müstəhəbdir. Onları qəsdən və ya unutqanlıqla deməyən şəxsin namazının pozulmaması barədə heç ixtilaf yoxdur.[85] Şübhəsiz ki, onları yerinə yetirməyən Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* sünnəsinə zidd bir iş görmüşdür.

---

[79] «Səhih əl-Buxari» (1/134, 135 – Hind nəşri).
[80] «Fəth əl-bəri» (2/550).
[81] Əlaxüsus da bu namazın qəzası qılınmayır. Bircə namazın vaxtının bitməsi istisna edilibdir.
[82] «Şərh təracim əbvab əl-Buxari» (80). Əlavə olaraq «əl-Məcmu» (5/27-29) kitabına bax.
[83] Əbu Musabın rəvayətilə, № 592.
Bu mətn, onun Yəhyanın məhşur rəvayətlərinə etdiyi əlavələrdəndir.
[84] «əl-Muğni» (2/212).
[85] İbn Qudəmənin «əl-Muğni» (2/244) əsəri.

Xütbənin namazdan sonra olması

Sünnəyə əsasən bayram xütbəsi namazdan sonra olmalıdır. Əl-Buxari öz «Səhih» əsərində "Xütbənin bayramdan sonra olması" adlı başlıq yazmışdır. [86]

عَنْ ابْنِ عَبَّاسٍ قَالَ: ((شَهِدْتُ العِيدَ مَعَ رَسُولِ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ وَ أَبِي بَكْرٍ وَ عُمَرَ وَ عُثْمَانَ رَضِيَ اللَّهُ عَنْهُمْ، فَكُلُّهُمْ كَانُوا يُصَلُّونَ قَبْلَ الخُطْبَةِ)).

İbn Abbasdan aşağıdakı sözləri deməsi rəvayət edilir: «Mən Peyğəmbər *(sallallahu əleyhi və səlləm)*, Əbu Bəkr, Ömər və Osmanla *(Allah onların hamısından razı olsun)* birgə bayramlarda oldum. Onların hamısı xütbədən öncə namaz qılardılar.»[87]

İbn Ömər belə demişdir: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)*, Əbu Bəkr və Ömər, hər iki bayram namazını xütbədən öncə qılardılar.»[88]

Əl-Buxarinin yazdığı irəlidə ötmüş başlığı izah edən Vəliyyullah əd-Dəhləvi demişdir:[89] "Yəni Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* sünnəsi və haqq yolda olan xəlifələrin (ərəb. əl-xuləfə ər-raşidin – tərc.) əməli bu cür olmuşdur. Baş verən hər hansı bir dəyişiklik isə, yəni onu cümə ilə müqayisə edərək xütbəni namazdan önə çəkmək, Mərvan[90] tərəfindən edilən yenilikdir."

---

[86] Bayram namazı fəsli, 8-ci bölüm. Bax: «Fəth əl-bəri» (2/453).
[87] Əl-Buxari (962), Muslim (884) və Əhməd (1/331, 346).
[88] Əl-Buxari» (963), Muslim (888), ət-Tirmizi (531), ən-Nəsəi (3/183), İbn Məcə (1276) və Əhməd (2/12, 38).
[89] «Şərh təracim əbvab əl-Buxari» (79).
[90] O, Mərvan ibn əl-Həkəm ibn Əbi əl-Asdır. Əməvi xəlifələrindən biri olan bu şəxs, hicri təqvimi ilə 65-ci ildə vəfat etmişdir. Onun tərcümeyi-halı «Tarix ət-Tabəri» (7/34) əsərindədir.

İmam ət-Tirmizi demişdir:[91] Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* əshabələrindən və sairələrindən ibarət elm əhli buna müvafiq əməl etmişdir. Onlar hər iki bayram namazının xütbədən əvvəl olduğunu demiişdirlər. Deyirlər ki, ilk dəfə namazdan öncə xütbə verən Mərvan ibn əl-Həkəm olmuşdur.[92]

- 16 -

Xütbə və onu dinləmənin seçimi

عَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ قَالَ: ((كَانَ النَّبِيُّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ يَخْرُجُ يَوْمَ العِيدِ وَ الأَضْحَى إِلَى المُصَلَّى، فَأَوَّلُ شَيْءٍ يَبْدَأُ بِهِ الصَّلاَةُ، ثُمَّ يَنْصَرِفُ، فَيَقُومُ مُقَابِلَ النَّاس - وَ النَّاسُ جُلُوسٌ عَلَى صُفُوفِهِمْ – فَيَعَظُهُمْ وَ يَوصِيهِمْ وَ يَأْمُرَهُمْ ...))

Əbi Səid əl-Xudri rəvayətində demişdir: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Orucluq və Qurbanlıq bayramları günündə musalləyə gedər və ilkin olaraq namaz qılardı. Namazı bitirdikdən sonra isə üzünü səflərdə oturmuş insanlara tutub onlara moizələr oxuyar, tövsiyyələr və əmrlər verərdi...[93]

Bayram xütbəsi başqa xütdələr kimidir. O, izzət və cəlal sahibi Allaha həmdsənalarla başlayır.

İbn Qeyyim demişdir: "Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bütün xütbələrini Allaha həmdsənalarla başlayardı. Onun bayram xütbələrini təkbirlə açması barədə isə etibar olunacaq heç bir hədis yoxdur. Bircə İbn Məcənin «Sünən»[94]

---

[91] «Sünən» (2/411) əsərində demişdir.

[92] İmam əş-Şəfiinin *(Allah ondan razı olsun)* «əl-Um» (1/235-236) və Qazi ibn əl-Arab əl-Məlikinin «Aridatu əl-Əhvazi» (3/3-6) kitablarına bax.

[93] Əl-Buxari (956), Muslim (889), ən-Nəsəi ((3/187), əl-Beyhəqi (3/280) və Əhməd (3/36, 54).

[94] «Sünən İbn Məcə» (1287). Onu həmçinin əl-Hakim (3/607) və əl-Beyhəqi (3/299) Abdurrahmən ibn Səd ibn Əmmər ibn Səd əl-muəzzindən rəvayət etmişdir. O demişdir: Mənə atam, ona isə öz atası, o da babasından nəql etmişdir ki... sona kimi danışır.

Bu rəvayətin isnadı, Abdurrahmən ibn Sədin etibarsızlığı, onun atasının və babasının isə naməlum şəxslər olması səbəbindən zəifdir.

əsərində varid olmuş rəvayətdə Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* müəzzini Səd əl-Qurazi demişdir:

كَانَ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ يُكْثِرُ التَّكْبِيرَ بَيْنَ أَضْعَافِ الخُطْبَةِ، وَ يُكْثِرُ التَّكْبِيرَ فِي خُطْبَتَيْ العِيدَيْنِ)).

«O *(sallallahu əleyhi və səlləm)*, xutbə əsnasında təkbiri çoxaldardı. Həmçinin bayram namazlarının xütbələrində də belə edərdi.» Lakin bu, Onun xütbəyə təkbirlə başlamasına sübut deyildir..."[95]

Bayram namazının iki xütbədən ibarət olması və onların oturuşla (yəni xütbə söyləyən imamın oturuşu ilə – tərc.) bir-birindən ayrılması sünnədə öz təsdiqini tapmamışdır!

Bu barədə rəvayət edilən hədis həddən artıq zəifdir. Onu əl-Bəzzər «Musnəd» (№ 52 – Sədin musnədi) əsərində öz şeyxi Abdullah ibn Şəbibin danışdığı sənədlə Şəddən *(Allah ondan razı olsun)* rəvayət etmişdir. O isə demişdir:

أَنَّ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ ... كَانَ يَخْطُبُ خُطْبَتَيْنِ، يَفْصِلُ بَيْنَهُمَا بِجَلْسَةٍ)).

«Peyğəmbər *(sallallahu əleyhi və səlləm)*... iki xütbə söyləyər və onları oturuşla ayırardı.»

Abdullah ibn Şəbib haqda əl-Buxari demişdir: "Hədisi qəbul edilmir (ərəb. munkəru əl-hədis – tərc.)."

Deməli bayram xütbəsi olduğu kimi qalaraq bir sayılacaqdır.

Abdullah ibn əs-Səibin rəvayətinə əsasən, xütbədə iştirak etmək namazda olduğu kimi vacib deyildir. O, demişdir: «Mən Peyğəmbərlə *(sallallahu əleyhi və səlləm)* birgə bayram keçirdim. O, namazı qıldıqdan sonra buyurdu:

((إِنَّ نَخْطُبُ، فَمَنْ أَحَبَّ أَنْ يَجْلِسَ لِلخُطْبَةِ فَلْيَجْلِسْ، وَ مَنْ أَحَبَّ أَنْ يَذْهَبَ فَلْيَذْهَبْ)).

[95] «Zədu əl-miəd» (1/447, 448).

«Biz indi xütbə söyləyəcəyik. Əgər kim istəsə otura, kim də istəsə gedə bilər.»[96]

İbn Qeyyim *(Allah ona rəhmət etsin)* demişdir:[97] "Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bayrama toplaşmış insanlara, oturub xütbəni dinləmələrinə və ya çıxıb getmələrinə imkan vermişdir.[98]

- 17 -

Bayramla cümənin bir günə düşməsi

Əbu Davud (1070), ən-Nəsəi (3/194), İbn Məcə (1310), İbn Xuzeymə (1464), əd-Dərimi (1620) və Əhməd (4/372) İyas ibn Əbi Ramlətə əş-Şəminən aşağıdakı sözləri dediyini rəvayət etmişlər:

عَنْ إِيَسِ بن أبِي رَمْلَة الشَّامِي قَالَ:

شَهِدْتُ مُعاوِيَة بن أبِي سُفْيَانَ وَ هُوَ يَسْأَلُ زَيْدَ بن أرْقَمٍ قَالَ: أشَهِدْتَ مَعَ رَسُولِ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ عِيدَيْنِ اجْتَمَعَا فِي يَوْمٍ؟ قَالَ: نَعَمْ. قَالَ: فَكَيْفَ صَنَعَ؟ قَالَ: صَلَّى العِيدَ ثُمَّ رَخَّصَ فِي الجُمْعَةِ، فَقَالَ: ((مَنْ شَاءَ أنْ يُصَلِّي فَلْيُصَلِّ)).

"Mən Müaviyə ibn Əbi Süfyanın Zeyd ibn Ərqamdan: Peyğəmbərlə *(sallallahu əleyhi və səlləm)* birgə iki bayramı bir gündə qeyd etmisənmi? sualını soruşmasına şahid oldum? O cavab verərək «Bəli» - dedi. Muaviyyə bir daha soruşdu: Bəs O nə etdi? (Yəni Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bayram namazı ilə cüməni necə qıldı? – tərc.). Zeyd ibn Ərqam dedi: Bayram namazını qıldıqdan sonra cüməni ixtiyari etdi. O

[96] Əbu Davud (1155), ən-Nəsəi (3/185), İbn Məcə (1290) və əl-Hakim (1/295) səhih bir sənədlə rəvayət etmişlər. Bax: «İrva əl-ğalil» (3/96-98).
[97] «Zədu əl-miəd» (1/448).
[98] Şeyxulislamın «Məcmu fətəva» (24/214) əsərinə bax.

(sallallahu əleyhi və səlləm) belə buyurdu: *«Kim qılmaq istəyirsə qılsın.»*"[99]

Bu barədə Əbu Hureyra və başqalarının da Peyğəmbərdən *(sallallahu əleyhi və səlləm)* söylədikləri rəvayətlər vardır.

Sahabələr *(Allah onların hamısından razı olsun)* onu məhz belə icra etmişdir.

Abdurrazzaq «əl-Musannəf» (3/305) və İbn Əbi Şeybə (eyni adlı – tərc.) «əl-Musannəf» (2/187) əsərlərində səhih isnadla Əlidən *(Allah ondan razı olsun)* rəvayət etmişlər ki, o, iki bayramın bir günə düşdüyü vaxt deyərdi: «Kim cüməni qılmaq istəyirsə, qoy onu da qılsın, kim də (cüməyə getməyərək bayram süfrəsində – tərc.) oturmaq istəyərsə, qoy otursun.»

Buna oxşar rəvayət «Səhih əl-Buxari» (5251) əsərində Osmandan *(Allah ondan razı olsun)* nəql edilmişdir.

Əbu Davud «Sünən» (1072), Abdurrazzəq isə «əl-Musannəf» (5725) əsərində, səhih bir isnadla Əbu əz-Zubeyrin aşağıdakı sözləri deməsini rəvayət etmişdir:

عَنْ ابْنِ الزُّبَيْرِ أَنَّهُ قَالَ: ((عِيدَانِ اجْتَمَعَا فِي يَوْمٍ وَاحِدٍ، فَجَمَعَهُمَا جَمِيعًا بِجَعْلِهِمَا وَاحِدًا، وَ صَلَّى يَوْمَ الجُمْعَةِ رَكْعَتَيْنِ بُكْرَةً صَلاَةَ الفِطْرِ، ثُمَّ لَمْ يَزِدْ حَتَّى صَلَّى العَصْرَ . .)).

«İki bayram bir günə düşdükdə, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* onları birləşdirərdi. O, cümə günü səhər tezdən Orucluq bayramının namazını iki rükət qıldıqdan sonra, əsr namazına qədər ona heç bir əlavə etməzdi...»

Əş-Şövkani «Neylu əl-Əvtar» (3/348) əsərində bu rəvayəti açıqlayaraq demişdir: «Hədisin zahirinə görə O, zöhr namazını qılmamışdır» .

Hədisə əsasən, əgər cümə namazı hər hansı bir icazəli şəkildə təxirə salınarsa, artıq onu qılmağa məsuliyyət daşımayan adama zöhr namazı vacib sayılmır. Əta bu nəzər-nöqtəsini dəstəkləmişdir.

---

[99] «Təlxis əl-həbir» (2/94) əsərində bildirildiyi kimi, imam Əli ibn əl-Mədini bu hədisin səhih olduğunu subuta yetirmişdir.

Göründüyü kimi bu sözü, həmin gün üçün məhz cümənin təyin edilməsini əsas götürənlər deyə bilərlər. Bildiyin kimi də, uca Allahın cümə günü Öz qullarına vacib etdiyi iş cümə namazıdır. Onu üzürlü və ya üzürsüz səbəbdən buraxan şəxsin vacib olaraq zöhr namazını qılmasını deməyə isə sübut lazımdır. Bildiyimə görə bu məsələdə etibar olunacaq bir dəlil də yoxdur.»

- 18 -

Bayram münasibətilə təbrik etmə

Şeyxulislam İbn Teymiyyə təbrikləşmə haqda soruşul-duqda belə cavab verdi:[100]

Bəzi insanların bayram günü namazdan sonra görüşərək bir-birinə: «Allah bizdən də, sizdən də qəbul etsin!» (ərəb. təqəbbələllahu minnə və minkum – tərc.), «Allah onu sənə bir daha qismət etdirsin!» (ərəb. Əhəlallahu əleykə – tərc.) və s. bu kimi sözlərlə təbrikləşməsinə gəlincə, bəzi sahabələrin belə dedikləri barədə rəvayətlər mövcuddur. Əhməd və başqa alimlər buna icazə vermişlər. Lakin Əhməd demişdir: "Mən heç kəsə birinci olaraq bu sözü demirəm. Əgər kimsə birinci olaraq bunu mənə deyərsə, onda cavab verərəm. Çünki salamı qaytarmaq vacibdir. Amma təbrikləşməyə birinci olaraq başla-mağın özü, bu, əmr formasında rəvayət edilən bir sünnədən deyildir. Bununla belə o, qadağan da edilməmişdir. Onu deyənin də, deməyənin də gördüyü bu işdə öz nümunəsi vardır. Allah daha yaxşı bilir.[101]

---

[100] «Məcmu əl-fətəvi» (24/253).

[101] Əl-Cəlal əs-Suyuti «Vusulu əl-əməni biusuli ət-təhəni» adlı risaləsində bir neçə sələfdən təbrikləşmə barəsində rəvayətlər nəql etmişdir. Əsər «əl-Həvi lilfətəvi» (1/81, 82) kitabı ilə birgə çap olunmuşdur. Oxunulması məsləhət görülür.

Hafiz İbn Həcər demişdir:[102] "Bizə «əl-Məhəmiliyyət» əsərində həsən bir isnadla rəvayət etmişlər ki, Cubeyr ibn Nufeyr aşağıdakı sözləri demişdir: «Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* əshabələri bayram günü bir-birlərilə görüş-dükləri zaman: «Allah bizdən də, sizdən də qəbul etsin» (ərəb. təqəbbələllahu minnə və minkum – tərc.) deyərdilər."

İbn Qudamə «əl-Muğni» (2/259) əsərində Məhəmməd ibn Ziyadın aşağıdakı sözlərini xatırlatmışdır: "Mən, Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* əshabələrindən olan Əbu Uməmətə əl-Bəhiliy və başqaları ilə birgə (bayramlarda – tərc.) oldum. Onlar bayramdan qayıdarkən bir-birinə: «Allah bizdən də, sizdən də qəbul etsin» - deyərdilər."

İmam Əhməd demişdir: «Əbu Uməmənin hədisinin isnadı etibarlıdır (ərəb. ceyyid – tərc.).»[103]

Amma insanların «Hər il xeyir içində olasınız!» (ərəb. kullu əmin və əntum bixeyrin – tərc.) və s. bu kimi sözlər deməsi məqbul deyildir. Əksinə belə ifadələr uca Allahın ayəsinə ziddir. O buyurur:

أَتَسْتَبْدِلُونَ الَّذِي هُوَ أَدْنَى بِالَّذِي هُوَ خَيْرٌ [البقرة : 61]

«Siz xeyirli olan şeyləri bu cür alçaq şeylərlə dəyişdirmək istəyirsiniz?» (əl-Bəqərə, 61)

- 19 -

Kəsilən qurbanlıq

Bayram namazından sonra Allaha yaxınlıq səbəbilə (ərəb. təqarrubən tərc.) kəsilən qurbanlıq heyvanı qoyundur. Çünki pak və uca Allah buyurmuşdur:

---

[102] «Fəthu əl-bəri» (2/446).

[103] «əl-Cövhəru ən-nəqi» (3/320) əsərinə bax!
əs-Suyuti «əl-Həvi» (1/81) kitabında demişdir: «Onun isnadı yaxşıdır».

 قُلْ إِنَّ صَلاَتِي وَ نُسُكِي وَ مَحْيَايَ وَ مَمَاتِي للَّهِ رَبِّ العَالَمِين لاَ شَرِيكَ لَهُ [الأنعام : 162]

«De ki: «Namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!» (əl-Ənam, 162).

Ayədə ***«ibadətim də»*** (ərəb. ən-nusuk – tərc.) kəliməsi: izzət və cəlal sahibi Allaha yaxınlıq məqsədilə kəsilən heyvandır.[104]

Alimlər bu məsələ barədə hökm çıxarmaqda ixtilaf etmişlər. Müxtəlif dəlillərdən irəli gələn nəzər nöqtəsinə görə o, vacibdir. Ey müsəlman qardaş! Onu vacib sayan alimlərin əsaslandığı dəlillərdən bir neçəsini sənə təqdim edirəm:

Birinci:

عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ: ((مَنْ كَانَ لَهُ سَعَةٌ وَ لَمْ يُضَحِّ فَلاَ يُقَرِّبَنَّ مُصَلاَّنَا)).

Əbu Hureyra *(Allah ondan razı olsun)* Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* belə buyurduğunu rəvayət etmişdir:

«İmkanı çataraq qurbanı kəsməyən şəxs bizim musalləyə yaxınlaşmasın!»[105]

Hədisin sübut gətirilməsi, Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* imkanı olaraq qurban kəsməyən şəxslərə musalləyə yaxınlaşmağı qadağan etməsinə əsaslanmışdır. Deməli həmin insan vacib bir işi yerinə yetirməmişdir. Sanki belə vacibata riayət etməyən şəxsin Allaha yaxınlaşmasının heç bir faydası yoxdur.

İkinci:

عَنْ جُنْدَبٍ بن عَبْدِ اللَّهِ البَجَلِيّ، قَالَ: شَهِدْتُ النَبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ يَوْمَ النَّحْرِ، قَالَ: ((مَنْ ذَبَحَ قَبْلَ أَنْ يُصَلِّيَ فَلْيُعِدْ مَكَانَهَا أُخْرَى، وَ مَنْ لَمْ يَذْبَحْ فَلْيَذْبَحْ)).

---

[104] «Mənhəcu əl-muslim» (səh. 355 – 356) bax!

[105] Hədisi Əhməd (1/321), İbn Məcə (3123), əd-Dəraqutni (4/277) və əl-Hakim (2/349 və 4/231) həsən isnadla rəvayət etmişdir.

Cundəb ibn Abdullah əl-Bəcəli demişdir: Mən qurban kəsilən gün Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* belə buyuduğunun şahidi oldum: *«Kim bayram namazını qılmamışdan əvvəl qurban kəsərsə, (namazdan sonra – tərc.) onun yerinə başqa birini kəssin! Kim də (yəni nə namazdan əvvəl və ya sonra – tərc.) kəsməyib, qoy kəssin!»*[106]

Əmr forması, açıq-aşkar işin vacibliyini bildirir. Onun bu hökmünü götürəcək başqa bir rəvayət isə varid olmamışdır.[107]

Üçüncü:

عَنْ مِخْنَفِ بْنِ سُلَيْمٍ أَنَّهُ شَهِدَ النَّبِيَّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ يَخْطُبُ يَوْمَ عَرَفَةَ، قَالَ: ((عَلَى أَهْلِ كُلِّ بَيْتٍ فِي كُلِّ عَامٍ أُضْحِيَةٌ وَ عَتِيرَةٌ، أَتَدْرُونَ مَا الْعَتِيرَةُ؟ هَذِهِ التِي يَقُولُ عَنْهَا النَّاسُ: رَجَبِيَّةٌ)).

Mixnəf ibn Suleym rəvayət etmişdir ki, o, Ərafa günü Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* xütbə verərkən belə buyurduğunu eşidib: *«Hər bir ev sakini il ərzində qurban və ətira*[108] *kəsməlidir. Bilirsinizmi ətira nədir? O, insanların rəcəbiyyə adlandırdıqlarıdır.»*[109]

Bu hədisdə onun vacib olması əmrlə bildirilir. Ətiraya gəlincə onun hökmü ləğv edilmişdir. Lakin ətiranın hökmünün silinməsi qurbanlığın hökmünün silinməsi demək deyildir. Deməli o, öz əsli üzərində də qalıbdır.

---

[106] Əl-Buxari (5562), Muslim (1960), ən-Nəsəi (7/224), İbn Məcə (3152), ət-Tayəlisi (936) və Əhməd (4/312, 313).

[107] Qurban kəsməyi müstəhəb adlandıranların dəlilləri və onlara verilən tutarlı cavab irəlidədir. Gözlə!

[108] Əbu Ubeyd «Ğaribu əl-hədis» (1/195) əsərində demişdir: O, Rəcəb ayında kəsilən heyvandır. Cahiliyyə dövründə yaşayanlar ondan yaxınlaşma üçün istifadə edirdilər. İslam gəldikdən sonra bu beləcə də qalmışdır. Daha sonra o, ləğv edildi.

[109] Hədisi Əhməd (4/215), İbn Məcə (3125), Əbu Davud (2788), əl-Bəğəvi (1128), ət-Tirmizi (1518) və ən-Nəsəi (7/167) nəql etmişdir. Onun isnadında Əbu Ramlətə adlı naməlum şəxs vardır. Əhməddə (5/76) hədis başqa yolla da rəvayət olunmuşdur. Lakin onun sənədi zəifdir. Bu səbəbdən də ət-Tirmizi «Sünən» kitabında onu həsən hesab etmiş, hafiz ibn Həcər isə «əl-Fəth» (10/4) əsərində onu gücləndirmişdir. Bax: «əl-İsabə» (9/151).

İbn əl-Əsir demişdir: İslamın ilkin illərində mövcud olan ətirənin hökmü ləğv edilmişdir.[110]

Müxaliflərə gəlincə onların qurbanlığın müstəhəbliyi iddialarında ən böyuk şübhələri Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* buyurduğu bu kəlamdır:

((إِذَا دَخَلَ العَشْرُ، فَأَرَادَ أَحَدِكُمْ أَنْ يُضَحِّيَ فَلاَ يَمَسَّ مِنْ شَعَرِهِ، وَ لاَ مِنْ بَشَرِهِ شَيْئًا)).

«Əgər on gün başlayanda sizlərdən biriniz qurban kəsmək istəyərsə, saçından və bədənindən bir şeyə toxunmasın.»[111]

Onlar (yəni qurban kəsməyi müstəhəb sayanlar) demişlər:[112] "Bu rəvayət sübutdur ki, qurban kəsmək vacib deyildir. Çünki Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* buyurmuşdur: *«əgər sizlərdən biriniz qurban kəsmək istəyərsə...»* Əgər vacib olsaydı, onu kəsən şəxsin öz iradəsinə buraxmazdı."

Şeyxulislam İbn Teymiyyə qurban kəsməyin vacibliyinin daha düzğün nəzər nöqtəsi olduğunu bildirdikdən sonra onların şübhələrinə belə cavab vermişdir:[113] "Vacibliyi inkar edənlərin heç bir dəlilləri yoxdur. Onların yeganə əsasları Peyğəmbərin *(sallallahu əleyhi və səlləm) «biriniz qurban kəsmək istəyərsə...»* kəlamıdır. Deyirlər ki:

«Vacib olan bir şey iradə ilə bağlı ola bilməz! Bu da ümumi bir ifadədir. Vacib isə heç vaxt qulun iradəsinə buraxılmır ki, deyilsin: əgər istəyirsənsə, et!»

Əksinə bəzən vacib özü hər hansısa hökmü aydınlaşdırmaqdan ötrü müəyyən bir şərtlə bağlı olur. Necə ki, uca Allah buyurur:

---

[110] «Cəmiu əl-usul» (3/317). Həmçinin «əl-Ədillətu əl-mutməinnətu alə subuti ən-nəsx fi əl-kitəbi və əs-sunnəti» (103 – 105) və «əl-Muğni» (8/650 – 651) əsərlərinə bax!

[111] Hədisi Muslim (1977), Əbu Davud (2791), ən-Nəsəi (7/211, 212), əl-Bəğəvi (1127), İbn Məcə (3149), əl-Beyhəqi (9/266), Əhməd (6/289, 301, 311), əl-Hakim (4/220) və ət-Tahavi «Şərh məaniyə əl-əsər» (4/181) əsərində Ummu Sələmədən *(Allah ondan razı olsun)* rəvayət etmişlər.

On gün dedikdə, Zülhiccə ayının ilk on günü nəzərdə tutulur.

[112] «əl-Məcmu» (8/301), «Muğni əl-muhtəc» (4/282), «Şərh əs-sunnə» (4/348) və «əl-Muhəllə» (8/3).

[113] «Məcmu əl-fətəvi» (23/162 – 164).

 إِذَا قُمْتُمْ إِلَى الصَّلاَةِ فَاغْسِلُوا [المائدة : 6]

«Namaza durduğunuz zaman yuyun...» (əl-Maidə, 6).

Təmizlənməyin vacib olmasına baxmayaraq, bu ayədə məqsədin:

(إِذَا أَرَدْتُمْ القِيَامَ)

«Əgər namaza durmaq istəsəniz», həmçinin namazda Quran oxunulmasının vacibliyi ilə yanaşı, başqa bir ayədən məqsədin «Əgər Quran oxumaq istəsən, Allaha sığın» olduğu bildirilmişdir.

(إِذَا أَرَدْتَ القِرَاءَةَ فَاسْتَعِذْ)

Uca Allah buyurur:

 إِنْ هُوَ إِلاَّ ذِكْرٌ لِلعَالَمِينَ لِمَنْ شَاءَ مِنْكُمْ أَنْ يَسْتَقِيمَ
[التكوير : 27 – 28]

«O, aləmlər üçün ancaq bir öyüd-nəsihətdir. Eləcə də sizdən doğru-düz (yolda) olmaq istəyənlər üçün.» (ət-Təkvir, 27- 28).

Baxmayaraq ki, doğru-düz yolda olmağı istəmək vacibdir."

Daha sonra ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* demişdir:[114] "Həmçinin qurban kəsmək hər bir fərdin üzərinə deyil, yalnız buna imkanı olana vacib edilmişdir. Elə qurban kəsmək istəyən də məhz bu şəxsdir. Necə ki, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* buyurmuşdur:

((مَنْ أَرَادَ الحَجَّ فَلْيَتَعَجَّل، فَإِنَّهُ قَدْ تَضِلُّ الضَّالةُ، وَ تَعْرِضُ الحَاجَّةُ)).

«Kim Həccə getmək istəyirsə, tələssin! Çünki itən itir, ehtiyac isə bildirilir.»[115] Baxmayaraq ki, Həcc onu yerinə

[114] İrəlidə ötən məsdərdə.

[115] Onu Əhməd (1/214, 323, 355), İbn Məcə (3883) və Əbu Nueym «əl-Hilyə» (1/114) əsərində əl-Fadldan zəif bir isnadla rəvayət etmişdir.

yetirməyi bacarana vacibdir. Deməli *«biriniz qurban kəsmək istəyərsə...»* sözləri, *«Kim Həccə getmək istəyirsə...»* ifadəsi ilə eynidir."

Onların (yəni müstəhəb deyənlərin – tərc.) ötən sübutlarına cavab verən imam əl-Eyniy[116] *(Allah ona rəhmət etsin)* «əl-Hidəyətu»[117] əsərinin müəllifinin: «Rəvayət edildiyi kimi, iradə kəlməsindən məqsəd – düzünü Allah daha yaxşı bilir – səhvin əksidir, seçim deyildir.» sözlərini açıqlayaraq demişdir: «Yəni məqsəd yerinə yetirməklə yetirməmək arasındakı seçim deyildir. Deməli sanki demək istəyir ki:

(مَنْ قَصَدَ أَنْ يُضَحِّيَ مِنْكُمْ)

«sizlərdən kim qurban kəsməyi qarşısına məqsəd qoyubsa». Bu ifadə vaciblik hökmü ilə heç bir ziddiyyət təşkil etmir. Çünki o, Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* buyurduğu:

(مَنْ أَرَادَ الصَّلاَةِ فَلْيَتَوَضَّأْ)

«Kim namaz qılmaq istəyərsə dəstəmaz alsın!» [118]və

(مَنْ أَرَادَ مِنْكُمْ الجُمْعَةَ فَلْيَغْتَسِلْ)

«Əgər sizlərdən hər hansı biriniz cüməyə gəlmək istəyərsə, qoy qüsl alsın»[119]*,* yəni «kim seçimsiz şəkildə qarşısına məqsəd qoysa» kəlamları ilə eynidir.

Vacib saymayanların «Sünən Əbu Davud» (2810), «Sünən ət-Tirmizi» (1574) və «Musnəd Əhməd» (3/356) əsərlərindən

---

Hədis başqa bir yolla da Əbu Davud (1732), əd-Dərimi (2/28), əl-Hakim (1/448) və Əhməd (1/225) tərəfindən rəvayət edilmişdir. Təəssüf ki, onda da zəiflik vardır. Lakin o, bu iki yolla inşallah həsəndir. Hörmətli müəllimimiz əl-Əlbəninin «İrva əl-ğalil» (4/168 – 169) əsərinə bax!

[116] Onun bu sözləri, «əl-Binəyətu fi şərh əl-hidəyəti» (9/106 – 114) əsərindədir.

[117] Onun tam adı «əl-Hidəyətu şərh əl-bidəyəti»dir. «Kəşfu əz-zunun» (2/2031 – 2040) kitabında deyildiyi kimi hənəfi fiqhi üzrə yazılmış bu əsər, məzhəbin ən mötəbər əsərlərindən biri sayılır. Əsərin müəllifi, hicrətin 593-cü ilində vəfat etmiş imam Əli ibn Əbu Bəkr əl-Mərğinənidir. Onun tərcümeyi-halı əl-Ləknəvinin «əl-Fəvaidu əl-bəhiyyə» (səh. 141) kitabındadır.

[118] Rəvayəti bu mətnilə tapa bilmədim. Ondan sonrakı hədis dəlil üçün yetərlidir. Bu isə, ola bilər ki, burada bir hədis kimi sübut gətirilməyib!

[119] Hədisi bu sözlərlə Muslim (844) İbn Ömərdən rəvayət etmişdir. Onu eyni ilə bu rəvayətçidən, lakin başqa mətnlə əl-Buxari də (877), (893) və (919) nəql etmişdir.

sübut gətirdikləri Cabirin səhih isnadlı rəvayətinə, yəni Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* ümmətinin yerinə qurban kəsməsinə gəlincə bu heç də məqsədəuyğun bir sübut deyildir. Çünki dəlilləri ümumləşdrdikdə, bəlli olur ki, hədisdə söhbət ümmətin imkansızlarından gedir. Belə ki, qurbanın vacibliyi, onu kəsməyə imkanı olmayan şəxslərin üzərindən köklü şəkildə götürülmüşdür. Allah daha yaxşı bilir.

- 20 -

Kəsilən qurbanlığa dair məsələlər

Kəsilən qurbanlıqla bağlı müxtəlif məsələlər vardır ki, gərək müsəlman onlardan agah olsun. Bu onun öz ibadətlərini elmi surətdə yerinə yetirməsi və ona verilən əmrlərdən xəbərdar olması üçündür. Onlardan bəzilərini Allahın izni ilə diqqətinizə çatdırıram:

Birinci: Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* iki qoyun qurban edər və[120] onları bayram namazından sonra kəsərdi. O *(sallallahu əleyhi və səlləm)*, xəbər vermişdir ki:

((مَنْ ذَبَحَ قَبْلَ الصَّلاَةِ فَلَيْسَ مِنْ النُّسُكِ فِي شَيْءٍ، وَ إِنَّمَا هُوَ لَحْمٌ قَدَّمَهُ لأَهْلِهِ)).

«Kim bayram namazından əvvəl heyvanını kəsərsə, onun bu kəsdiyi qurbanlıq deyil, sadəcə öz ailəsinə aldığı adi ət sayılar.»[121]

İkinci: Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* Öz əshabələrinə birillik qoyunu (ərəb. əl-cəzəu – tərc.) və ikiillik

[120] Bu deyilənin dəlili məsələnin eyniliyi səbəbindən səkkizinci bənddə təqdim ediləcəkdir.
[121] Əl-Buxari (5560) və Muslim (1961) əl-Bəra ibn Azibdən rəvayət etmişdir.

(ərəb. əs-səniyyə – tərc.) başqa heyvanları kəsməyi əmr edərdi.[122]

Mucəşi ibn Məsud *(Allah ondan razı olsun)* Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* belə buyurduğunu rəvayət etmişdir:

عَنْ مُجَاشِعَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ قَالَ: ((إِنَّ الجِذْعَ مِنْ الضَأْنِ يُوَفِّي مِمَّا يُوَفِّي مِنْهُ الثَّنِيُّ مِنَ المَعْزِ)).

«Birillik qoyun, ikiillik keçi kimidir.»[123]

Üçüncü: Qurbanlığın kəsilməsi bayramdan sonrakı yəni ikinci və ya da üçüncü günə təxirə salına bilər. Peyğəmbərdən *(sallallahu əleyhi və səlləm)* rəvayət edilən etibarlı hədisdə O, buyurmuşdu:

عَنْ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَ سَلَّمَ أَنَّهُ قَالَ: ((كُلُّ أَيَّامَ التَّشْرِيقِ ذَبْحٌ)).

"Qurban bayramından sonrakı günlərdə də (ərəb. eyyəmu ət-təşriq – tərc.)[124] *qurbanlıq kəsmək olar".*

Bu Əhmədin, Məlikin və Əbu Hənifənin *(Allah onlara rəhmət etsin)* məzhəbidir. Əhməd demişdir: Bu Məhəmməd peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* bir neçə əshabəsinin

---

[122] Hafiz ibn Həcər «əl-Fəth» (10/5) kitabında demişdir: əl-Cəzəu kəliməsinin cim hərfi fəthəli, zəl hərfi isə bir nöqtəlidir. Bu sözlə müəyyən illik heyvan qəsd olunur. Məsələn əksər alimlərin (ərəb. cumhur – tərc.) nəzər nöqtəsinə görə o, bir ili tamam olmuş, bir qism alimlərə görə isə bir ilə çatmamış qoyuna deyilir. İli ötməyəndir deyənlər daha sonra onun neçə aylıq olması məsələsində ixtilaf etmişlər. Onlardan bəziləri bu qoyunun səkkiz, digərləri isə on aylıq olduğunu bildirmişdir.

Əs-səniyyə (yəni qoyundan başqa ikiillik heyvanlara) gəlincə, bu, dəvədə beş ili tamam olmuş, inək və keçidə isə, iki ili ötərək üçüncü ilə keçmiş heyvanlara deyilir.

«Zədu əl-miəd» (2/317) əsəri və onu yazılmış açıqlamaya bax!

[123] «Səhih əl-Cəmi» (1592). Həmçinin mütləq olaraq «Silsilətu əl-əhədis əd-daifə» (1/87-95) əsərinə bax!

® «Zəif hədislər silsiləsi» 1/159.

[124] Hədisi Əhməd (4/8), əl-Beyhəqi (5/295), İbn Hibban (3854) və İbn Ədiy «əl-Kəmil» (3/1118) əsərlərində rəvayət etmişdir. Lakin onun isnadı qırıqdır.

Onu həmçinin ət-Tabərani «əl-Mucam» kitabında zəif rəvayətçi (ərəb. leyyin –tərc.) vasitəsilə nəql etmişdir.

Hədisin başqa bir sənədi də vardır. Onu İbn Ədiy «əl-Kəmil» əsərində Əbu Səid əl-Xudridən zəif isnadla rəvayət etmişdir.

Beləliklə hədis inşallah həsəndir. «Nasbu ər-rayəti» (3/61) əsərinə bax!

əsaslandığı sözdür. Əl-Əsram onu İbn Ömər və İbn Abbasdan *(Allah onlardan razı olsun)* rəvayət etmişdir.[125]

Dördüncü: Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* qoyduğu yola əsasən qurban kəsmək istəyən şəxs gərək Zilhiccə ayının daxil olduğu ilk on gün ərzində saçından və bədənindən heç bir şey götürməsin. Bu haqda dürüstlüyünə etibar olunacaq qadağa vardır.[126]

Ən-Nəvəvi «Şərhu Muslim» (13/138-139) kitabında demişdir: "Dırnağın və saçın götürülməsinin qadağan edilməsi dedikdə, məqsəd dırnağın yonma, sındırma və sairə ilə, həmçinin qoltuqaltı, bığ, övrət yeri, saç və ya bədənin hər hansı bir yerində bitən tükün, qırxma, gödəltmə, qopartma, yandırma, maqqaşlama və digər üsullarla götürülməsidir."

İbn Qudamə «Muğni» (11/96) əsərində demişdir: "Əgər birdən etsə, Allahdan bağışlanma diləsin (ərəb. Əstəğfirullah – tərc.). Alimlər yekdilliklə bildirmişlər ki, istər qəsdli, istərsə də qəsdsiz edilən bu işə görə fidyə verilmir."

Nəzərinizə çatdırım ki, İbn Qudamə *(Allah ona rəhmət etsin)* yuxarıdakı sözləri ilə həmin işin haram və qəti qadağan olmasına işarə edir. Beləki bu, Peyğəmbəin qoyduğu qadağanın kökündə açıq-aşkar özünü biruzə verir.

Beşinci: Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* qurbanlıq seçərkən onun eyibsiz olmasına diqqət yetirər və belə heyvanı tərifləyərdi. Qulağı kəsiyin və ya buynuzu sınmışın[127] kəsilməsini isə qadağan edərdi. O həmçinin qurbanlıq heyvanın sağlamlığına baxmağı əmr edərdi. Yəni onun təkgöz və ya qulağının öndən, arxadan, ortadan kəsik, yaxud da deşik olmamasını tapşırardı. Bütün bu deyilənlər barədə sübuta yetmiş qadağalar vardır.[128]

---

[125] «Zədu əl-miəd» (2/319).

[126] İşarə edilən hədisin mənbəyi bu kiabın 45-ci səhifəsindədir. Mütləq olaraq «Neylu əl-Əvtar» (5/200-203) əsərinə bax!

[127] Bu rəvayəti Əhməd (1/83, 127, 129 və 150), Əbu Davud (2805), ət-Tirmizi (1504), ən-Nəsəi (7/217), İbn Məcə (3145) və əl-Hakim (4/224) Əlidən *(Allah ondan razı olsun)* həsən isnadla nəql etmişdir.

[128] Əl-Muqabilətu: (ərəb dilində – tərc.) qulağının ön hissəsində kəsiyi olan, əl-mudəbiratu: qulağının arxa hissəsində kəsiyi olan, əş-şərqau: qulağı parçalanmış, əl-xarqau: qulağı deşilmiş

Artım verməyən qoyuna (ərəb. əl-kəbşu əl-məvcuu, ey: əl-xusıyyu – tərc.) gəlincə, onu qurbanlıq kimi kəsmək olar. Bu barədə Peyğəmbərdən *(sallallahu əleyhi və səlləm)* rəvayət varid olmuşdur. Onu Əbu Yələ (1792) və əl-Beyhəqi (9/268) nəql etmiş, əl-Heysəmi isə «Məcmu əz-zəvaid» (4/22) əsərində həsən isnadlı olduğunu bildirmişdir.

Altıncı: Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* qurbanlıq heyvanını musallədə kəsərdi.[129]

Yeddinci: Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* qoyduğu yola əsasən, qurbanlıq heyvanın savabı onu kəsən kişinin özünə və saylarından asılı olmayaraq ailə üzvlərinə çatır. Bu barədə Əta ibn Yəsər[130] demişdir: Mən Əbu Eyyub əl-Ənsaridən soruşdum: Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* vaxtında qurbanlıq necə idi? O dedi: Əgər kişi bir dənə heyvan qurban edərdisə, onu özünün və ailəsinin adından kəsər, sonra isə ondan yeyər və yedizdirərdilər.[131]

Səkkizinci: Qurbanı kəsərkən «Allahu Əkbər» (ərəb. təkbir - tərc.) və «Bismilləh» (ərəb. təsmiyə - tərc.) deyilməsi müstəhəbdir (yəni yerinə yetirsən savab, yetirməsən isə günah yazılmayan bir işdir – tərc.). Bu, Ənəsdən rəvayət edilən hədisdə öz təsdiqini tapmışdır. O demişdir: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* iki kök və buynuzlu qoyunu öz əli ilə qurban kəsdi. O kəsdiyi zaman «Allahu Əkbər» və «Bismilləh» deyərək ayağını onların böyürlərinə qoyardı.))[132]

Doqquzuncu: Ən yaxşı qurbanlıq buynuzlu, erkək, gözlərinin qırağı və ayaqları qara rəngə boyanmış ağ qoyundur.

---

heyvana deyilir. Bu barədə rəvayət edilən hədisin isnadı həsəndir. Onu Əhməd (1/80, 108), Əbu Davud (2804), ət-Tirmizi (4198), ən-Nəsəi (7/216), İbn Məcə (3143), əd-Dərimi (2/77), və əl-Hakim (4/222) Əlidən *(Allah ondan razı olsun)* nəql etmişlər.

[129] Bu hədisi əl-Buxari (5552), ən-Nəsəi (7/213) və İbn Məcə (3161) İbn Ömərdən rəvayət etmişdir.

[130] Əta ibn Yəsər, hicrətin 103-cü ilində vəfat etmişdir. Onun tərcümeyi-halı «Təhzibu ət-təhzib» (7/217) əsərindədir.

[131] Bu rəvayəti ət-Tirmizi (1505), Məlik (2/37), İbn Məcə (3147) və əl-Beyhəqi (9/268) həsən isnadla nəql etmişdir.

[132] Hədisi əl-Buxari (5558), (5564) və (5565), Muslim (1966) və Əbu Davud (2794) rəvayət etmişdir.

Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* məhz bu görünüşdə olan heyvanı bəyənmiş və qurban kəsmişdir.[133]

Onuncu: Həmçinin müsəlmanın öz qurbanına toxunması (kəsməsi, soyması və s. – tərc.) müstəhəbdir. Onun heyvanı kəsməyi başqasına tapşırması isə eybsiz və yolverilən bir işdir.[134]

Onbirinci: Qurban kəsən ailənin həmin qurban ətindən yeməsi, hədiyyə və sədəqə verməsi, həmçinin də özündə saxlaması müstəhəbdir. Bütün bunlar Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* aşağıda buyurduğuna əsaslanır: *«(Qurbanlıq ətindən – tərc.) yeyin, toplayın və sədəqə verin!»*[135]

Onikinci: Dəvə və inək yeddi yerə bölünür. Muslim öz «Səhih»ində (305) Cabirdən *(Allah ondan razı olsun)* rəvayət etmişdir ki: «Biz Peyğəmbərlə *(sallallahu əleyhi və səlləm)* birgə Hudeybiyyədə olarkən dəvəni (ərəb. əl-bədənətu – tərc.) və inəyi yeddi nəfərin yerinə kəsirdik.»

Onüçüncü: Qəssaba qurbanlıq heyvanı kəsdiyinə görə bir şey ödənilmir. Bu haqda Əlinin *(Allah ondan razı olsun)* aşağıdakı sözləri deməsi sübuta yetmişdir: «Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* mənə, kəsilən dəvəsinin yanında dayanmağımı, onun ətindən, dərisindən və qoruyucu geyimindən sədəqə verməyi və bütün bunlardan heç bir şeyi qəssaba verməməyimi əmr etmişdir. O demişdir: «Biz özümüz onun (qəssabın – tərc.) xərcini ödəyərik.»[136]

Ondördüncü: Qurban kəsməyə imkanı olmayan müsəlman, Məhəmməd *(sallallahu əleyhi və səlləm)* ümmətindən olan qurban kəsənlərin savabını qazanır. Buna səbəb Peyğəmbərin

---

[133] Bu barədə varid olan hədisi Muslim (1967) və Əbu Davud (2792) Aişədən rəvayət etmişlər.

[134] Bu məsələdə elm əhli arasında hər hansı bir ixtilafı olduğunu bilməyirəm. İrəlidəki onikinci bəndə bax!

[135] Hədisi əl-Buxari (5569), Muslim (1971), Əbu Davud (2812) və başqaları Aişədən rəvayət etmişlər. Toplama haqqında varid olmuş qadağaya gəlincə onun hökmü götürülmüşdür (ərəb. nəsx – tərc.). Bu məsələ ilə əlaqədar «Fətu əl-bəri» (10/25 – 26), «əl-İtibər» (120 – 122) və İbn Qudamənin «əl-Muğni» (11/108) əsərinə bax!

[136] Hədisi bu sözlərlə Muslim (317), Əbu Davud (1769), əd-Dərimi (2/74), İbn Məcə (3099), əl-Beyhəqi (9/294) və Əhməd (1/79, 123, 132, 154) rəvayət etmişdir. Əl-Buxari (1716) isə onu «Biz özümüz onun (qəssabın – tərc.) xərcini ödəyərik» əlavəsi olmadan nəql etmişdir.

(sallallahu əleyhi və səlləm) qurbanlıq iki qoyundan birini kəsərkən: *«Allahım bu mənim və ümmətimin qurban kəsməyənləri adındandır))*.[137]

Onbeşinci: İbn Qudamə «əl-Muğni» (11/95) kitabında demişdir: Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* və Raşidi xəlifələr qurban kəsmişdir. Əgər onlar bilsəydilər ki, sədəqə vermək bu işdən daha əfzəldir, onu edərdilər... Çünki sədəqənin qurbandan üstün sayılması, Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* sünnəsinin yerinə yetirilməməsinə gətirib çıxarır.

- 21 -

Bayramda yolverilməz işlər

Ey müsəlman qardaşım! Allah məni də, səni də haqqa müvəffəq etsin! Bilməlisən ki, bayramlardakı şadlanma ilə bir çox insanlar öz dini cavabdehliklərini, İslam əhkamlarını unudur və ya da unutdurulurlar. Beləki onların bir çox günahlar və yolverilməz işlər etdiklərini görürsən. Özləri isə həmin işləri yaxşı əməl adlandırırlar!! Bütün bu deyilənlər məni, oxuduğunuz bu risaləyə bəzi dəyərli araşdırmaları əlavə etməyə sövq etdi. Çünki onların müsəlmanlara unutduqları və qəflətdə olduqları məsələləri xatırlatmaqda böyük rolu vardır. Yolverilməz işlər aşağıdakılardır:

Birinci: Saqqalı qırxaraq bəzənmək. Bu bir çox insanların gördüyü işdir. Halbuki saqqalın qırxılması pak və nöqsansız Allahın dinində haram buyurulmuşdur. Deyilənə sübut saqqalın uzadılmasını əmr edən səhih hədislərdir. Buna (yəni saqqalın uzadılmasına - tərc.) səbəb ya müşriklərə oxşamamaq, onlardan fərqlənmək, ya da dəyişdirilməsinə icazə verilməyən fitrətdir (yəni yaradılış surətidir – tərc.). Bilməlisən ki, onun

[137] Hədisin mənbəyi bu kitabın 49-cu səhifəsində verilmişdir.

qırxılmasının haramlığı barədə sübut və dəlillər dörd məzhəb kitablarında vardır.[138]

İkinci: Yad qadınlarla əllə görüşmək. Ümumi bir bəlaya çevrilmiş bu işdən yalnız Allahın rəhm etdiyi kimsələr xilas ola bilir. O, Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* buyurduğu aşağıdakı sözlərə əsasən haramdır: *«Kişinin başına dəmir iynənin batırılması, yad qadına toxunmasından daha yaxşıdır.»*[139] Bu işin haramlığı dörd məzhəb kitablarında dəlillərlə göstərilmişdir.[140] Diqqətli ol!

Üçüncü: Özünü geyimdə, çalğı alətlərinə qulaq asmaqda və sairə pis işlərdə kafirlərə və qərblilərə bənzətmək. Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* buyurmuşdur: *«Kim özünü bir dəstə insana bənzədərsə, onlardan sayılar.»*[141]

O həmçinin buyurmuşdur: *«Mənim ümmətimdən zinanı, ipəyi, içkini və çalğı alətlərini halal sayan insanlar olacaqdır. Elə adamlar da olacaq ki, dağın döşündə alaçıq tikəcək, yanlarına bir kasıb gəldikdə ona «get sabah gələrsən» deyəcəklər.»*[142]

---

[138] «Fəthu əl-bəri» (10/351), «İxtiyəratu əl-elmiyyə» (6), «əl-Muhəllə» (2/220), «Ğazəu əl-əlbəb» (1/376) və başqa kitablara bax!

Hörmətli qardaşımız Məhəmməd ibn İsmayıl «Ədillətu təhrim həlqi əl-lihyəti» kitabında bu barədə varid olan hədisləri nəql etdikdən sonra alimlərin yazdığı şərhləri və etimad olunan məzhəb kitablarındakı sözləri xatırlatmışdır. Onun apardığı elmi münaqişələrə isə əlavə ediləcək bir şey yoxdur. Bu nəfis kitabı oxu! Həmçinin «Məcəllətu əl-əzhər» (7/328) əsərinə bax! Mən məsələ ilə əlaqədar «Hökmu əd-din fi əl-lihyəti və ət-tədxin» adlı kiçik bir risalə yazmışam. Allaha həmdsənalar olsun ki, o dəfələrlə çap edilmişdir.

[139] Hədis səhihdir. Onun məsdərləri barədə geniş məlumat almaq üçün əd- Diyə əl-Məqdisinin «Cuzu ittibə əs-sünən» (№ 15) əsərinin tərəfimdən aparılmış araşdırmasına bax!

[140] «Şərh ən-Nəvəvi ələ Muslim» (13/10), «Haşiyətu İbn Abidin» (5/235), «Töhfətu əl-əhvazi» (7/95) və «Ədvau əl-bəyən» (6/603) əsərlərinə bax!

[141] Hədis Əhməd (2/50, 92) İbn Ömərdən həsən isnadla, ət-Tahavi «Muşkilu əl-əsər» (1/88) kitabında Həssən ibn Atıyyədən, Əbu Nueym «Əxbəru Əsbəhən» (1/129) əsərində Ənəsdən rəvayət etmişdir. Hədis haqda tənqidlə danışılmasına baxmayaraq o bu isnadlarla inşallah səhihdir.

[142] Hədisi əl-Buxari (5590) kəsik isnadla (ərəb. muəlləq – tərc.) rəvayət etmişdir. Əbu Davud (4039), əl-Beyhəqi (10/221) və başqaları isə onu tam bir isnadla nəql etmişlər. Hafiz ibn Həcər «Hədyu əs-səri» (59) əsərində demişdir: Onu Həsən ibn Sufyan «Musnəd» əsərində, əl-İsmaili, ət-Tabərani «əl-Kəbir» kitabında, Əbu Nueym dörd yolla, İbn Hibban «Səhih»ində və başqaları tam bir isnadla rəvayət etmişlər.

Hədisdə deyilən "məazif" sözünün mənası haqda İbn əl-Əsir «ən-Nihəyə» (3/230) kitabında demişdir: "əl-Əzfu" dəff və sairə bu kimi döyəclənən çalğı alətlərində ifa etməkdir.

Dördüncü: Qadınların yanına daxil olmaq. Bu, Peyğəmbərin *(sallallahu əleyhi və səlləm)* aşağıdakı sözlərinə əsaslanır: *«Sizi qadınların yanına daxil olmaqdan çəkindirirəm!»* Ənsarlardan bir kişi dedi: Ey Allahın elçisi! Yaxın qohumunu da (ərəb. əl-həmvu – tərc.) nəzərdə tutursan? O buyurdu: *«Yaxın qohumu ölümdür».*[143]

Dahi alim əz-Zəməxşəri "əl-həmvu" (yəni yaxın qohumu) kəliməsini şərh edərək demişdir: "Cəmi şəklinə "əhməu" deyilən bu söz: Ərin yaxın qohumlarına, məsələn atası[144], qardaşı, əmisi və başqalarına deyilir... *«Yaxın qohumu ölümdür»* kəlamının mənasına gəlincə, məqsəd qadının yaxın qohumunun şərr və fəsad hədəfi olmasıdır. Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* onu ölümə bənzətmişdir. Çünki belə bir işin sonu bəla və pis aqibətlə nəticələnir. Buna səbəb isə, kimliyini bildiyin və özünə arxayın oluduğun qohumun qərib birisindən daha xətərli olmasıdır. Axı tanış olmayan bir şəxslə ehtiyatlı davranaraq onu nəzarət altında saxlayarsan. Ola da dilər ki, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* bu sözləri ilə həmin qadına bəd dua etmişdir. Sanki onun ölümü, özünün razılığı ilə yanına yaxın qohumunun daxil olmasına bərabərdir."[145]

Beşinci: Qadınların açıq-saçıqlığı, bazarlara və sairə yerlərə getmələri Allahın şəriətinə görə haram edilmişdir. Uca Allah buyurur:

وَ قَرْنَ فِي بُيُوتِكُنَّ وَ لاَ تَبَرَّجْنَ تَبَرُّجَ الجَاهِلِيَّةِ الأُولَى وَ أَقِمْنَ الصَّلاَةَ وَ آتِينَ الزَّكَاةَ الآية [الأحزاب : 33]

«Evlərinizdə qərar tutun. İlkin Cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!) Namaz qılın, zəkat verin.» (əl-Əhzab, 33).

Əz-Zəhəbi «ət-Təzkiratu» (4/1337) əsərində demişdir: "əl-Məazif" sözü, tanbur, zumr, şəbəbə və sairə bu kimi ... alətlərin adıdır.

[143] Hədisi əl-Buxari (5232) və Muslim (2172) Uqbə ibn Amirdən nəql etmişdir.

[144] Qurani kərimə əsasən ata istisnadır. «əl-Muğni» (6/570) kitabına bax!

[145] «əl-Fəiqu fi ğaribi əl-hədisi» (1/318). Bax: «ən-Nihəyətu» (1/448), «Ğaribu əl-hədis» (3/351), «Şərh əs-sunnəti» (9/26, 27).

Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* buyurmuşdu: *«Mən Cəhənnəmə sakin olacaq iki dəstə insanı: ... və yarı çılpaq dönük*[146] *qadınlar görmədim. Onların başları sanki dəvənin (ərəb. əl-buxtu – tərc.)*[147] *əyilmiş hürgüclərdir. Bu qadınlar nə Cənnətə girər, nə də onun filan məsafədən duyulan qoxusunu hiss edərlər.»*[148]

Altıncı: Bayram gününu xüsusiləşdirərək qəbrləri ziyarət etmək, halva və digər yeyiləcək şeyləri orada paylamaq, qəbr üstündə oturmaq, kişi və qadınların bir-birinə qarışması, lüzumsuz yerlərə səfərlər, ölülər üçün şivən qoparmaq və sairələr açıq-aşkar yolverilməz işlərdəndir.[149]

Yeddinci: Ehtiyac duyulmayan, məsləhət görülməyən və heç bir faydası olmayan işlərdə israfçılıq və bədxərclik etmək. Uca Allah buyurur:

﴿ وَ لاَ تُسْرِفُوا إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ ﴾ [الأنعام : 141]

«İsraf etməyin. Allah israf edənləri sevməz!» (əl-Ənam, 141).

Başqa bir ayədə isə şəni uca tutulan buyurur:

﴿ وَ لاَ تُبَذِّرْ تَبْذِيرًا إِنَّ الْمُبَذِّرِينَ كَانُوا إِخْوَانَ الشَّيَاطِينِ ﴾
[الاسراء : 26 – 27]

«Eyni zamanda (mal-dövlətini əbəs yerə) sağa-sola da səpələmə! Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər şeytanın qardaşlarıdır.» (əl-İsra, 26 – 27).

Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* buyurmuşdur: *«Qiyamət günü Adəm oğlu Allahın qarşısında ... və malını*

---

[146] Yəni uca, pak və nöqsansız Allaha itaət etməkdən və övrət yerlərini qorumaqdan boyun qaçıran azmış qadınlar. «ən-Nihəyətu» (4/382).

[147] Əl-Qadı İyad «Məşəriqu əl-ənvar» (1/79) kitabında demişdir: əl-Buxtu: iki hürgüclü iri dəvəyə deyilir. Sözün hədisdəki mənasına görə bu qadınlar başlarını örtüklə böyüdür, saçlarını (başları ətrafına – tərc.) sarıyır və gözlərini haram buyurulmuş seylərdən çevirmirlər. Allah daha yaxşı bilir.

[148] Hədisi Muslim «Səhih» (2128, 2856 və 52) əsərində və Əhməd (2/223 və 356) Əbu Hureyrədən rəvayət etmişdir.

[149] Qəbr ziyarətlərində yolverilən digər bidətlər barədə ətraflı məlumat əldə etmək üçün şeyximiz əl-Əlbəninin - Allah ona qorusun - «Əhkəmu əl-cənəiz» (258 – 267) kitabına bax!

haradan qazandığı və nəyə xərclədiyi haqda sorğu-suala tutulmayınca yerindən tərpənməyəcək.»[150]

Səkkizinci: Bir çox insanlar, şəriətin bəlli etdiyi üzrü olmadan məsciddə icra ediləsi namazları qılmağa gəlməyir, digərləri isə bayram namazı ilə kifayətlənərək sairə namazları yerinə yetirməyirlər. Allaha and olsun ki, bu böyük bəlalardan biridir!

Doqquzuncu: Əksər adamlar, səhər tezdən bayram namazını qılmağa getməyərək qəbrstanlığa yığışırlar. Belələri "xüsusən bayram günü qəbrləri ziyarət etmə" bidətinə yoluxmuşlar.[151]

Bəziləri bu edilənlərə əlavə olaraq qəbrlərin üzərinə xurma[152] və digər ağacların budaqları qoyurlar!! Bütün bunlara sünnədən heç bir əsas yoxdur.

Onuncu: Kasıb və imkansız adamlarla əlaqə saxlamamaq nəticəsində, sevinib-gülən, şadlanan və dadlı yeməklər yeyən ancaq varlıların uşaqları olur. Bu şəxslər ehtiyaclı insanların vəziyyətilə maraqlanmaq, onlara köməklik göstərmək və yaxud da onlara görə daşıdıqları məsuliyyəti barədə düşünmədən bu əməlləri kasıbların və uşaqlarının gözü qarşısında edirlər. Baxmayaraq ki, Peyğəmbər *(sallallahu əleyhi və səlləm)* buyurmuşdur:

(لاَ يُؤْمِنُ أَحَدِكُمْ حَتَّى يُحِبَّ لأَخِيهِ مَا يُحِبُّ لِنَفْسِهِ)

«Sizlərdən biriniz özünə istədiyini qardaşına arzula-mayınca iman gətirmiş sayılmaz.»[153]

---

[150] Hədisi ət-Tirmizi (2316), əl-Xatib «Tarix» (12/440) əsərində İbn Məsuddan zəifliklə rəvayət etmişdir. Lakin onu əd-Dərimi (1/131), Əbu Nueym «əl-Hilyə» (10/232), İbn əd-Dəbisi «Zeylu tərixi Bəğdəd» (2/163) kitabında Əbu Burzətədən, həmçinin əl-Xatib (11/441) Muazdan baqşa sənədlərlə nəql etmişdir. Hədis nəticə etibarı ilə həsəndir.

Daha sonra onun isnadlarını İbn Əsakirin «Zəmmu mən lə yəməlu biilmihi» (№ 1, № 2) əsərinə yazdığım araşdırmada ətraflı izah etdim.

[151] İbn əl-Həcin «əl-Mədxəl» (1/286), Əli Məhfuzun «əl-İbdəu» (səh. 135), əl-Şəqirinin «Sunənu əl-ideyn» (səh. 39).

[152] Buna zidd bir şeyin təsəvvür edilməsi məqbul deyildir. «Əhkəmu əl-cənəiz» (səh. 254), «Məalimu əs-sunən» (1/27) və həmçinin şeyx Əhməd Şakirin «Sünən ət-Tirmizi» (1/103) əsərinə yazdığı açıqlamalara bax!

Onbirinci: Şeyxləri dəstəkləyən bir çox insanlar bayram günlərində Allaha yaxınlıq adlı bir bidət də edirlər. Baxmayaraq ki, uca Allahın dinində bu əməlin heç əsli belə yoxdur. O, çoxşaxəli bidətdir.[154] Yazdığım bu risalədə, məqsəddən uzaqlaşmamağım üçün onlardan yalnız birini xatırlatmaq istərdim. Bu, bir çox xatiblərin və vaizlərin dilindən düşməyən "bayramın iki gecəsi oyaq qalmaqla pak və nöqsansız Allaha yaxınlıq" çağırışıdır. Onlar özləri buna əməl etməklə kifayətlənməyə-rək, üstəlik bu işi Peyğəmbərlə *(sallallahu əleyhi və səlləm)* də əlaqələndirir və Onun belə buyurduğunu deyirlər:

«Orucluq və Qurbanlıq gecəsi oyaq qalan kimsənin ürəyi, ürəklər öldüyü gün ölməz olar.»[155] Belə bir rəvayəti Peyğəmbərə *(sallallahu əleyhi və səlləm)* nisbətləndirilməsi yolverilməzdir. Yolların ən xeyirlisi Məhəmmədin *(sallallahu əleyhi və səlləm)* yoludur.

- 23 -

Sonluq

Bu, Allahın məni Orucluq və Qurbanlıq bayramlırı və onların əhkamları barədə deyilənlərin toplanmasına, tərtibinə və elmi öyrənəndən fərqli olaraq bisavad müsəlmanın lazımına gələcək açıqlamalara müyəssər etdiyi yazının sonluğudur. Onu bütün müsəlmanlara bir xatırlayıcı olaraq təqdim etməkdə məqsədim onların Allah qorxusu və sevgisi ilə öz ibadətlərini düzgün şəkildə yerinə yetirmələri və Ona yaxınlıqlarını daha da möhkəmləndirmələridir. Əgər hər hansı bir səhvə yol versəm, bu

---

[153] Hədisi əl-Buxari (13), Muslim (45) rəvayət etmişdir. Onu həmçinin ən-Nəsəi (8/115) və əl-Bəğəvi (3474) nəql etmiş və *«özünə istədiyi **xeyri**»* kəliməsini əlavə etmişlər. Onun isnadı səhihdir.

[154] Bu barədə «Əyədu əl-İsləm» (58), "Bayramlardakı bidətlər" fəslinə bax!

[155] Bu qondarma hədisdir. Onun haqqında şeyximiz əl-Əlbəni «Silsilətu əl-əhədis əd-daifəti» (520, 521) əsərində ətraflı danışmışdır. O məsləhət görülür.

öz nəfsimdən və şeytandandır. Yox əgər düz desəm bu yalnız Allahdandır.

Son duamız budur ki, aləmlərin Rəbbinə həmdsənalar olsun!

Yazdı: Əbu əl-Həris Əli ibn Həsən ibn Əli.

İordaniya, Zərqa şəhəri. Hicrətin min dördyüz dördüncü ili, Səfər ayının on beşi (mil.1984-cü il).

Hicrətin min dördyüz on üçüncü ili, Şaban ayının əvvəllərində dəfələrlə keçirilən yığıncaqlarda risaləyə bir daha nəzər yetirərək, ona bəzi əlavələr etdim.

Mündəricat

İkinci nəşrin müqəddiməsi 3
Birinci nəşrin müqəddiməsi 4
Bayram 8
Allahın Məhəmməd ümmətinə mərhəməti 9
Cariyələrin dəff çalmasını dinləməyə icazə verilməsi 10
Bayram günü gözəl qiyafədə olmaq 12
Musalləyə getmə haqda 14
Musalləyə getmə və qayıtma ədəbləri 15
Bayram namazlarında təkbir deyilməsi 17
Bayram günlərində yemək nə vaxt yeyilir 21
Bayramdan əvvəl qüsl almaq 22
Bayram namazından əvvəl və ya sonra namaz qılınırmı 23
Bayram namazının hökmü 24
Bayram namazının vaxtı 26
Bayram namazlarında iqamə və azan verilməz 28
Bayram namazının qılınması 29
Xütbənin namazdan sonra olması 34
Xütbə və onu dinləmənin seçimi..... 35
Bayramla cümənin bir günə düşməsi 37
Bayram münasibətilə təbrik etmə 39
Kəsilən qurbanlıq 41
Kəsilən qurbanlığa dair məsələlər 47
Bayramda yolverilməz işlər 52
Sonluq 58

Əli Həsən əl-Əsəri

Pak Sünnədə Orucluq və Qurbanlıq bayramları əhkamları

Yığılmağa verilmişdir: 19.12.2003
Çapa imzalanmışdır: 06.01.2004
Kağız formatı 60/84 1/16. Ədəbi qarnitur.
Ofset çap üsulu. Şərti ç.v. 6,25.
Tirajı 1000.